

# Uşaqlara münasibətdə cinsi istismar və seksual xarakterli hərəkətlərin qarşısının alınması və onlarla mübarizə (UCİSH):

## Milli cavab tədbirləri modeli

We PROTECT
GLOBAL ALLIANCE
END CHILD SEXUAL EXPLOITATION ONLINE

Noyabr 2016

WePROTECT GLOBAL ALLIANCE
END CHILD SEXUAL EXPLOITATION ONLINE

# Uşaqlara münasibətdə cinsi istismar və seksual xarakterli hərəkətlərin qarşısının alınması və onlarla mübarizə (UCİSH):

## Milli cavab tədbirləri modeli

Noyabr 2016

# Mündəricat

Uşaqlara münasibətdə cinsi istismar və seksual xarakterli hərəkətlərin qarşısının alınması və onlarla mübarizə......1

Potensial 1 – Liderlik......3

Patensial 2 – Tədqiqat, təhlil və monitorinq......5

Potensial 3 – Qanunvericilik......7

Potensial 4 – İxtisaslaşmış hüquq mühafizəsi......9

Potensial 5 – Məhkəmələr və dövlət ittihamçıları......11

Potensial 6 - Cinayətkarlarla rəftarın idarə edilməsi......13

Potensial 7 – Şəkil bazalarına çıxış......15

Potensial 8 – Kompleks dəstək......17

Potensial 9 – Uşaqların müdafiəsi üzrə işçi qüvvəsi......19

Potensial 10 – Təzminat, hüquqi müdafiə vasitələri və şikayət mexanizmləri......21

Potensial 11 – Uşaq Yardım Xətti......23

Potensial 12 – UCİSH üzrə Qaynar Xətt......25

Potensial 13 – Təhsil proqramı......27

Potensial 14 – Uşaq İştirakı......29

Potensial 15 – cinayətkarlar üzrə dəstək sistemləri......31

Potensial 16 – Zərərsizləşdirmə prosedurları......33

Potensial 17 – UCİSH haqqında məlumat verilməsi......35

Potensial 18 – İnnovativ həllərin hazırlanması......37

Potensial 19 – Korporativ sosial məsuliyyət......39

Potensial 20 – Etik və məlumatlı media reportajı......41

Potensial 21 – Universal terminologiya......43

# Uşaqlara münasibətdə cinsi istismar və seksual xarakterli hərəkətlərin qarşısının alınması və onlarla mübarizə:

## Milli cavab tədbirləri modeli

2015-ci ildə Əbu-Dabi sammitində hökumətlər və təşkilatlar WePROTECT Qlobal Alyansının Milli Cavab Tədbirləri Modeli (MCTM) əsasında öz ölkələrində internetdə uşaqların cinsi istismarına qarşı əlaqələndirilmiş milli cavab tədbirləri yaratmaq barədə razılığa gəlmişlər. Bu sənəd sözügedən ölkə və təşkilatlara bu öhdəliklərini yerinə yetirməkdə kömək üçün MCTM-lə bağlı rəhbərlik və dəstək təmin edir. Modelin diqqət mərkəzində ölkələrə onlayn uşaq cinsi istismarına qarşı müqavimət formalaşdırmaqda destek dayandirilsa da, bu məsələnin ayrı-ayrılıqda həll edilə bilməyəcəyi və tam milli müqavimətin təmin edilməsi məqsədilə uşaqlara münasibətdə cinsi istismar və seksual xarakterli hərəkətlərin qarşısının alınması və onlarla mübarizə üçün daha geniş mubarize usullari tələb olunduğu qəbul edilir:

Bu model:

- ölkələrə hazırki cavab tədbirlərini qiymətləndirmək və çatışmazlıqları müəyyən etmək
- çatışmazlıqları aradan qaldırmağa yönəlmiş səyləri prioritetləşdirmək
- beynəlxalq səviyyədə qarşılıqlı anlaşma və əməkdaşlığı gücləndirmək imkanı verir.

Bu model uşaqlara münasibətdə cinsi istismar və seksual xarakterli hərəkətlərin qarşısının alınması və onlarla mübarizə fəaliyyəti üzrə mövcud beynəlxalq bazaya, ekspertlərin və praktik fəaliyyət göstərən mütəxəssislərin çoxillik əməyinə əsaslanır. Bura BMT Uşaq hüquqları konvensiyası (UNCRC) və onun Uşaq fahişəliyinə və uşaq pornoqrafiyasına dair fakültativ protokolu daxildir. Eləcə də 1996-cı ildə İsveçdə, 2001-ci ildə Yaponiyada, 2008-ci ildə Braziliyada keçirilmiş Uşaq və yeniyetmələrin cinsi istismarı üzrə üç dünya konqresi nəticəsində hazırlanmış Fəaliyyət gündəlikləri.

Modelin məqsədi fəaliyyətləri təyin etmək və ya vahid yanaşma müəyyən etmək deyil. Məqsəd uşaqların effektiv müdafiəsi üçün lazım olan bacarıqları təsvir etmək, artıq bu potensiallara malik ölkələrin qabaqcıl təcrübələrinə işıq salmaq, mövcud potensiallarını inkişaf etdirmək və ya gücləndirmək istəyən ölkələr üçün əlavə rəhbərlik və dəstək təmin edə biləcək metn neyi nezerde tutur göstərməkdir.

Vacib məqamlardan biri odur ki, Model başlanğıc nöqtəsindən asılı olmayaraq, ölkələrə potensiallarındakı hər hansı çatışmazlığı müəyyən etmək və onların aradan qaldırılmasının planlaşdırılmasına başlamaq imkanı verəcək. Bu Modeldən istifadə ölkələrə BMT Davamlı inkişaf məqsədlərinin, əsasən də 16.2 saylı Uşaqlara qarşı bütün zorakılıq formalarının və işgəncənin aradan qaldırılması hədəfinin həyata keçirilməsinə töhfə verən fəaliyyətləri müəyyən etməyə kömək edə bilər. Eyni zamanda 8 .7 və 5 .2-ci hədəflərin həyata keçirilməsi üçün yarım təmin edilə bilər.

Ölkələr birlikdə razılaşdırılmış çərçivə və potensialların metne baxmaq kontekstində öz yanaşmalarını hazırlasalar da, maraqlı tərəflər arasında həm ölkə səviyyəsində, həm də beynəlxalq səviyyədə ünsiyyət və əməkdaşlığın daha da güclənəcəyinə ümid edilir.

Potensialların icra edilməsi uşaqların cinsi istismardan qorunması sahəsində əhəmiyyətli nəticələrin əldə edilməsinə gətirib çıxaracaq. Bunlar hazır və effektiv olacağı təqdirdə nəticələri sürətləndirəcək və təkmilləşdirəcək bir sıra zəruri şərtlərlə birlikdə Modeldə açıq və ətraflı təsvir edilir.

Ümid edirik ki, bu Model uşaqların onlayn cinsi istismarı sahəsində qurbanlara və cinayətkara münasibətdə yüksək səviyyədə cavab tədbirləri ilə nəticələnəcək potensial formalaşdırmaqda faydalı vasitə olacaq. Növbəti WePROTECT sammitində bu Modelin uşaqların cinsi istismarına qarşı milli, regional və beynəlxalq səviyyələrdə cavab tədbirlərinin hazırlanması və əlaqələndirilməsi istiqamətində hansı töhfə verdiyini eşitməyi səbirsizliklə gözləyirik. Biz həmçinin WePROTECT Qlobal Alyansının veb-saytı – www.weprotect.org vasitəsilə göndərilə biləcək rəyləri də bizim üçün arzuolunandır. Bu model dinamik alətdir, əlavə versiyalar və təlimatlar hazırlayacağıq.

**Zəruri şərtlər**

- Sektorlararası, çoxsahəli əməkdaşlıq
- Məhkəmə qaydasında təqib istəyinin olması, işlək məhkəmə sistemi və qanunun aliliyi
- Məlumatların verilməsi üçün əlverişli mühit
- Məlumatlı və dəstəkləyici cəmiyyət, uşaqlar üçün və uşaqlarla işləyən peşəkarlar
- Yetərli maliyyə və insan resursları
- BMT Uşaq hüquqları konvensiyası və başqa beynəlxalq və regional standartlara uyğun milli hüquqi və siyasətlər bazası
- UCİSH haqqında məlumatlar və sübutlar

| Potensiallar | | | Nəticələr | |
|---|---|---|---|---|
| Siyasət və idarəçilik | 1 | **Liderlik**<br>Hesabat verməli olan Milli İdarəçilik və Nəzarət Komitəsi | Ölkədə UCİSH hallarının qarşısının alınması və onlara qarşı cavab tədbirləri sahəsində yüksək səviyyəli öhdəlik | UCİSH-nin ən yüksək hökumət və hüquq-mühafizə orqanları səviyyələrində hərtərəfli başa düşülməsi. Qurbanların müdafiəsinin, UCİSH cinayətlərinə qarşı cavab tədbirlərinin təkmilləşdirilməsi məqsədilə çoxsaylı maraqlı tərəflərlə əməkdaşlıq istəyi və onlarla əməkdaşlıq səylərinin əlaqələndirilməsi. |
| | 2 | **Tədqiqat, təhlil və monitorinq**<br>Ölkədə UCİSH riski ilə bağlı vəziyyətin təhlili və cavab tədbirlərinin ölçülməsi göstəriciləri | | |
| | 3 | **Qanunvericilik**<br>Təqsirli şəxslərin instintaqı və qurbanların müdafiəsinin təmin edilməsi üçün hərtərəfli və effektiv hüququ baza | | |
| Cinayət mühakimə icraatı | 4 | **İxtisaslaşmış hüquq-mühafizə orqanları**<br>Ölkə üzrə səlahiyyət, təlim keçmiş əməkdaşlar, proaktiv və cinayət sonrası araşdırmalar, qurbanların diqqət mərkəzində saxlanması, beynəlxalq əməkdaşlıq | Effektiv və uğurlu UCİSH istintaqları, məhkum edilmə və cinayətkarlarla rəftarın idarə edilməsi | Hüquq mühafizə orqanları və məhkəmələr qurbanların diqqət mərkəzində olduğu istintaqların aparılmasına, müsbət məhkəmə nəticələrinə təminatın verilməsinə imkan yaradan bilik, bacarıq, sistem və vasitələrə malikdirlər. UCİSH cinayətlərində təqsirli şəxslər idarə edilir və təkrar hüquq pozuntularının törədilməsinin qarşısı alınır. |
| | 5 | **Məhkəmələr və dövlət ittihamçıları**<br>Təlimin keçilməsi, qurbanların diqqət mərkəzində saxlanması | | |
| | 6 | **Cinayətkarlarla rəftarın idarə edilməsi**<br>Ölkə səviyyəsində və beynəlxalq səviyyədə cinayət mühakimə sistemində cinayətlərin təkrar törədilməsinin qarşısının alınması | | |
| | 7 | **Yalniz shekil bazasidir mi yoxsa elektron melumat bazasi mi**<br>Ölkə üzrə məlumat bazası, İnterpol məlumat bazası ilə əlaqələndirilmə (ICSE) | | |
| Qurban | 8 | **Kompleks dəstək**<br>İstintaq, cinayət təqibi mərhələlərində və daha sonra kompleks xidmətlərin təmin edilməsi | Uşaqlar və gənclər üçün müvafiq dəstək xidmətləri | Uşaqlar və gənclər istintaq və cinayət təqibi müddətində xidmətlərdən istifadə imkanına malikdirlər. Onların sığınacaqlara, ixtisaslaşmış tibbi və psixoloji xidmətlərə, reabilitasiya və repatriasiya və təkrar sosiallaşma xidmətlərinə çıxışları var. |
| | 9 | **Uşaqların müdafiəsi üzrə işçi qüvvəsi:**<br>Təlim keçirilən, əlaqələndirilən və qurbanlara dəstək göstərməyə hazır | | |
| | 10 | **Təzminat, hüquqi müdafiə vasitələri və şikayət mexanizmləri:**<br>Əlçatan prosedurlar | | |
| | 11 | **Uşaq Yardım Xətti**<br>Qurbanlar tərəfindən məlumatın verilməsi və qurbanlara dəstək, davamlı dəstək üçün xidmətlərə yönləndirmələr | | |
| Sosial | 12 | **UCİSH üzrə Qaynar Xətt**<br>Onlayn UCİSH məzmunun bildirilməsi üçün mexanizm, hüquq-mühafizə orqanları və internet xidmət provayderləri ilə əlaqələndirilmə | UCİSH-nin qarşısının alınması | Uşaqlar özlərini UCİSH-ə qarşı qorumları məqsədilə məlumatlandırılıb və bu imkanla təmin edilib. Valideynlər, baxıcılar, müəllimlər, uşaqlara qayğı mütəxəssisləri seksual zorakılıq ətrafındakı tabular daxil olmaqla, uşaqları UCİSH hallardan qorumağa daha yaxşı hazırdılar. |
| | 13 | **Təhsil proqramı**<br>Uşaqlar, gənclər, valideynlər, baxıcılar, müəllimlər, mütəxəssislər, dini icma üzvləri üçün | | |
| | 14 | **Uşaq iştirakı**<br>Uşaqlar və gənclər siyasət və təcrübənin hazırlanmasında söz sahibidirlər | | |
| | 15 | **Preventiv tedbirler sistemi**<br>Tibbi, psixoloji özünəyardım barədə məlumatlılıq | | |
| Sənaye sektoru | 16 | **Zərərsizləşdirmə prosedurları**<br>UCİSH məzmunun yerli səviyyədə kənarlaşdırılması və bloklanması | Sənaye sektorunun UCİSH hallarının qarşısının alınması və onlarla mübarizə sahəsində həllərin hazırlanmasına cəlb edilməsi | Sənaye sektoru onlayn UCİSH məzmunun bloklanması və kənarlaşdırılması üçün səlahiyyət və istəyə malikdir və yerli UCİSH məsələlərini proaktiv qaydada həll edir. Sənaye sektoru onlayn UCİSH halları haqqında proaktiv məlumat verirlər. |
| | 17 | **UCİSH haqda məlumatın verilməsi**<br>Məzmunun hüquq-mühafizə orqanları və başqa səlahiyyətli orqanlara ötürülməsi daxil olmaqla, UCİSH məlumatlarının tam və effektiv verilməsi üçün qanunla nəzərdə tutulan müdafiə mexanizmləri | | |
| | 18 | **İnnovativ həllərin hazırlanması**<br>Sənaye sektorunun yerli UCİSH məsələlərinin həll edilməsinə yardım üçün cəlb olunması | | |
| | 19 | **Korporativ sosial məsuliyyət**<br>Effektiv uşaq yönümlü proqram | | |
| Media və kommunikasiya | 20 | **Etik və Məlumatlı Media Reportajı**<br>Problem haqqında məlumatlılığın və dəqiq anlaşılmanın təmin edilməsi | İctimaiyyət, peşəkarlar və siyasətlərin qəbul edilməsinə görə məsul dairələrin məlumatlılığının artırılması | Potensial təqsirli şəxslər hüquq pozuntusundan çəkindirilir. CSİH cinayətləri və cinayətlərin təkrar törədilməsi halları azaldılır. |
| | 21 | **Universal terminologiya**<br>Təlimatlar və tətbiq | | |

# Potensial 1 – Liderlik

## Anlayış

- Yaxşı idarəçilik uşaqların onlayn cinsi istismara qarşı qorunmasına görə cavabdeh olan şəxsləri bir araya gətirir və kollegial, sektorlararası milli orqan və ya orqanlardan ibarətdir (bundan sonra səlahiyyətli orqan).
- Kollegial orqanın qəbul etməli olduğu vahid bir model yoxdur: o, ölkənin uşaqların onlayn cinsi istismarının qarşısının alınması və cavab tədbirləri bacarıq və potensialı üzərində ümumi idarəçilik və nəzarətin həyata keçirilməsinə görə cavabdeh ola, yaxud sadəcə hökumət, sənaye sektoru və vətəndaş cəmiyyəti arasında əlaqələndirici orqan kimi çıxış edə bilər. Artıq ümumi uşaq nəzarəti qrupunun, yaxud daha geniş çərçivədə rəqəmsal vətəndaşlığı, kibertəhlükəsizliyi, uşaqlara və ya uşaq hüquqlarına qarşı zorakılığı əhatə edən orqanın olduğu ölkələrdə bu funksiya mövcud mexanizm daxilində öhdəliyə götürülə bilər.
- İdeal hallarda bu, dövlət tərəfindən idarə edilən orqandır. Effektiv cavab tədbiri üçün vətəndaş cəmiyyəti və sənaye sektoru bu fəaliyyətə tam cəlb olunmalıdır.
- Milli orqana aşağıdakı sahə və təşkilatlardan yüksək vəzifəli şəxslər daxil ola bilər: müvafiq dövlət qurumları (Daxili İşlər, Ədliyyə, Sosial Müdafiə, Təhsil, Səhiyyə və Rabitə Nazirlikləri), hüquq-mühafizə orqanları, məhkəmələr, qeyri-hökumət təşkilatları, Texnologiya/İKT sektoru və başqa müvafiq fəaliyyət sahələri (məsələn, turizm), dini təşkilatlar və uşaqların cinsi istismarı və uşaqlara qarşı zorakılıq sahəsində çalışan başqa ixtisaslaşmış orqanlar.
- Bu orqan uşaqların cinsi istismarına qarşı cavab tədbirlərinin səfərbər edilməsinə və əlaqləndirilməsinə, Milli Cavab Tədbirləri Modeli vasitəsilə müəyyən edilmiş çatışmazlıqların aradan qaldırılması məqsədilə fəaliyyətlərin müəyyənləşdirilməsi və təbliğinə görə cavabdeh ola bilər.
- O, uşaqlara qarşı cinsi istismar sahəsində bilik və bacarıqların milli və yerli xidmət təminatçıları arasında yayılmasına kömək edə, həm milli, həm də yerli səviyyələrdə bütün maraqlı tərəflərin iştirakını nəzərdə tutan çoxtərəfli yanaşmanı təşviq edə bilər.
- Milli orqan beynəlxalq təşkilatlardan tələb olunan hər hansı dəstəyi müəyyənləşdirə, təmin edə və əlaqələndirə, uşaqların cinsi istismarı ilə əlaqədar beynəlxalq təşəbbüslər və şəbəkələr üzrə milli koordinasiya mərkəzi ola bilər. O, eyni zamanda ölkə səviyyəsində uşaqlara qarşı zorakılıq və daha ümumi çərçivədə uşaq hüquqları, kibertəhlükəsizlik və rəqəmsal vətəndaşlıq sahəsində mövcud başqa milli siyasət, platforma və fəaliyyət planları ilə uyğunluğu təmin etməlidir.

## Nə üçün lazımdır?

- Uşaqlara qarşı cinsi istismar və seksual xarakterli hərəkətlərin qarşısının alınması və onlara qarşı cavab tədbirləri sahəsində milli fəaliyyət planının kollektiv surətdə razılaşdırılmasına, işin gedişatının izlənməsinə və haqqında hesabatın verilməsinə imkan yaratmaq.
- Mütəxəssis biliklərinin və məlumatlarının daha geniş mübadiləsi hər bir maraqlı tərəfin mövcud təcrübəsini artıracaq və məlumatla tamamlayacaq və beləliklə, milli səviyyədə xidmət və potensialın təkmiləşməsinə, cinayətkarların beynəlxalq səviyyədə fəaliyyət göstərmək imkanını məhdudlaşmasına gətirib çıxaracaq.
- Milli orqan uşaqlara qarşı cinsi istismarın qarşısının alınması üzrə WePROTECT kimi qlobal təşəbbüslərdə fəal və əlaqələndirilmiş iştirakı təmin edəcək, bu isə beynəlxalq əməkdaşlığı genişləndirəcək və qabaqcıl təcrübələrin beynəlxalq səviyyədə mübadiləsinə imkan yaradacaq.
- Milli orqandan beynəlxalq icma tərəfindən təmin edilən hər hansı dəstəyin əlaqələndirilməsi üçün istifadə edilməsi bu dəstəyin ölkənin ehtiyacları əsasında prioritet inkişaf sahəsində cəmlənməsinə imkan verəcək.

## Əlavə təlimat və dəstək

- Hökumətlər üçün İKT ilə əlaqədar zorakılıq, istismar və sui-istifadənin tərəfdaşlarla əməkdaşlıq çərçivəsində aradan qaldırılması üzrə milli strategiyalara dair rəhbər sənəd hazırda YUNİSEF tərəfindən hazırlanır və 2017-ci ildə təqdim olunacaq.

# Potensial 2 – Tədqiqat, təhlil və monitorinq

## Anlayış

- Ölkədə uşaqlara qarşı cinsi istismarla bağlı hazırki təhlükə, həssaslıq, risk və cavab tədbirləri – və bu qiymətləndirmələri dəstəkləyən məlumat və dəlillər aydın başa düşülüb. Qiymətləndirmənin etibarlılığı və əhatəli məlumatlara əsaslandığı milli orqanın bütün üzvləri (bax: Potensial 1 - Liderlik) tərəfindən kollektiv surətdə təsdiq edilib.
- Uşaqlara münasibətdə cinsi istismar və seksual xarakterli hərəkətlərin qarşısının alınması və onlarla mübarizə (UCİSH) fəaliyyətləri məlumatlılığa və dəlillərə əsaslanır. Ölkənin UCİSH cavab tədbirlərinin, eləcə də əlaqədar siyasət və praktikasının hazırlanması, prioritetləşdirilməsi və icrasının məlumatlılığa əsaslanması üçün milli səviyyədə razılaşdırılmış qiymətləndirmədən istifadə olunur.
- Ölkə səviyyəsində razılaşdırılmış cavab tədbirlərinə ölçülə bilən nəticələr və göstəricilər daxilidir, işin gedişatı müntəzəm olaraq izlənir və nəticələr qiymətləndirilir. UCİSH fəaliyyətləri uşaqların müdafiəsi, uşaqlara qarşı zorakılıq və ya uşaq hüquqları kimi əlaqədar məsələlər üzrə mövcud hər hansı siyasət, plan və ya strategiyaya daxil edilə bilər.
- Fəaliyyətin aktuallığının və məqsədəuyğunluğunun qorunmasının təmin edilməsi məqsədilə UCİSH ilə əlaqədar yerli məsələlərin davamlı araşdırması aparılır, qərar qəbulu prosesinin dəstəklənməsi üçün istifadə olunan araşdırmanın keyfiyyəti və mahiyyəti fəal surətdə izlənir.
- UCİSH ilə əlaqədar beynəlxalq və regional standartlarla uyğunluq izlənilir və qiymətləndirilir.

## Nə üçün lazımdır?

- Ölkə səviyyəsində koordinasiya edilən araşdırma və təhlil cəlb edilmiş təşkilatların müxtəlifliyi və sayı sayəsində UCİSH ilə əlaqədar təhlükə, həssaslıq, risk və cavab tədbirləri barədə etibarlı rəy formalaşdıra bilər.
- Güclü araşdırma, müntəzəm monitorinq və qiymətləndirmə vasitəsilə uşaqların cinsi istismarına qarşı milli cavab tədbirlərinin keyfiyyəti təkmilləşdirə və davamli inkişaf etdirilə bilər.
- Araşdırma və təhlil yeni və ya formalaşmaqda olan UCİSH tendensiyalarını və modellərini müəyyənləşdirəcək, uşaqların qorunması üçün effektiv siyasətlərin hazırlanması, eləcə də müdaxilə imkanları və hüquq pozuntularının qarşısının alınması üçün imkan yaradacaq.
- Məlumatlılığa və dəlillərə əsaslanan siyasət və praktika fəaliyyətlərin bariz şəkildə uşaqlara ən böyük zərərin verildiyi və ən əhəmiyyətli potensial çatışmazlıqlarının müəyyənləşdirildiyi sahələrdə prioritetləşdirilməsini təmin edəcək.
- Fəaliyyətlərin davamlı və müntəzəm monitorinqi, işin gedişatı haqqında hesabatların verilməsi, eləcə də əvvəlcədən razılaşdırılmış göstəricilər üzrə nailiyyətləri ölçən ehtiyatlı qiymətləndirmələr hökumətə işin gedişatı barədə müvafiq beynəlxalq, regional standartlar və hədəflər əsasında hessbat verməyə kömək edəcək. Bura BMT Uşaq hüquqları konvensiyası (UNCRC) və onun Uşaq fahişəliyinə və uşaq pornoqrafiyasına dair fakültativ protokolu, eləcə də 2030-cu il gündəliyi, xüsusən 16.2-ci Davamlı inkişaf məqsədi (uşaqlara münasibətdə sui-istifadə, istismar, insan alveri, işgəncə və zorakılığın bütün formalarının aradan qaldırılması) daxildir.

## Qabaqcıl təcrübə

- Təhlil minimum aşağıdakıları yerinə yetirməlidir: UCİSH ilə bağlı hazırki təhlükənin, onun necə təzahür etdiyinin, ən çox kimin üçün risk təşkil etdiyinin qiymətləndirilməsi; ölkənin bu təhlükə qarşısında həssaslığının qiymətləndirilməsi; hazırkı təşkilati cavab tədbirlərinin qiymətləndirilməsi; beynəlxalq standart və qabaqcıl təcrübələrə uyğunluq baxımından müvafiq qanunvericilik və siyasətlərin icrasının nəzərdən keçirilməsi və qiymətləndirilməsi; İKT ekosistemindəki cari cavab tədbirlərinin, o cümlədən Qaynar xətt məlumatlandırma mexanizmlərinin və sənaye sektorunun nə dərəcədə cəlb edildiyinin nəzərdən keçirilməsi və bu məsələyə cəlb olunmuş başqa maraqlı tərəflərin fəaliyyətlərinin xəritəsinin cızılması.
- Təhlilin lazımi məlumatla təmin edilməsi üçün milli orqanda təmsil olunan təşkilatlar və hər hansı başqa müvafiq maraqlı tərəf UCİSH ilə əlaqədar müxtəlif məlumatlara çıxışa imkan yaratmalıdırlar. Bundan əlavə, başlıca məlumatlar uşaqlar, valideynlər, pedaqoqlar, hüquq mühafizə orqanlarının əməkdaşları və xidmət təminatçıları kimi müxtəlif mənbələrdən toplanmalıdır.

## Əlavə təlimat və dəstək

- Bir sıra hökumətlərarası və beynəlxalq qeyri-hökumət təşkilatları bütün dünyada hökumətlər və vətəndaş cəmiyyəti ilə əməkdaşlıqda araşdırma, təhlil və monitorinq aparmış, ölkələrə yardım məqsədilə ən yaxşı təcrübələri formalaşdırmışlar Bura YUNİSEF və onun Tədqiqatlar İdarəsi (www.unicef .org/protection və www.unicef-irc .org), ECPAT (www.ecpat .net) və "Family Online Safety Institute" təşkilatının Qlobal resurs və məlumat direktoriyası (www.fosigrid .org) daxildir. Onların veb-saytlarında daha ətraflı məlumat əldə edilə bilər.
- BMT Baş Katibinin Uşaqlara qarşı Zorakılıq üzrə Xüsusi Nümayəndəsi Uşaqların potensialının reallaşdırılması və risklərin minimumuna endirilməsi – IKT, internet və uşaqlara qarşı zoraklıq – www.srsg.violenceagainstchildren.org
- "Global Kids Online" internetin uşaqların zərərgörmə riskini artırıb-artırmadığının və necə artırdığının daha yaxşı başa düşülməsi məqsədi daşıyan beynəlxalq layihədir. Layihə buna bütün dünyada uşaqların yeni rəqəmsal, şəbəkəli və mobil texnologiyalardan necə istifadə etdiyinə dair araşdırmaları stimullaşdırmaq və yönləndirməklə nail olur. Ətraflı məlumat üçün: www.unicef-irc.org/article/1194/

# Potensial 3 – Qanunvericilik

## Anlayış

- Uşaqların həm onlayn, həm də oflayn cinsi istismar və sui-istifadənin bütün formalardan qorunması üçün hərtərəfli və effektiv qanunvericilik
- Qanunvericilik seksual xarakterli cinayət törədənlərin əməllərinin kriminallaşdırılması ilə məhdudlaşmamlı, hüquq-mühafizə orqanlarının belə əməlləri törədən cinayətkarları müəyyən edə bilməsini təmin etməli, onların qurbanlarını qorumalı, qurbanların hüquqlarının müdafiə olunmasını, onlayn xidmət təminatçılarının onlayn məzmunun nəzərdən keçirilməsi və şikayət edilməsi üçün tam təhlükəsiz müdafiə vasitəsi ilə təchiz edilməsini təmin etməlidir.
- Qanunvericilik beynəlxalq standartları və uşaqların müdafiəsi üzrə qabaqcıl təcrübələri özündə birləşdirən BMT Uşaq hüquqları konvensiyası (UNCRC) və onun Uşaq fahişəliyinə və uşaq pornoqrafiyasına dair fakültativ protokoluna əsaslanan beynəlxalq hüquq əsasında yaradıla və ya onun nümunəsində formalaşdırıla bilər.

## Nə üçün lazımdır?

- Hərtərəfli və effektiv qanunvericilik hüquq-mühafizə orqanlarına istintaq aparmaq, uşaqlara qarşı seksual cinayətdə təqsirli şəxsləri təqib etmək, daha çox qurbanı müdafiə etmək imkanı verəcək. Uşaqlara qarşı yönəlmiş bütün seksual xarakterli cinayətlərin təqib edilə bilməsi üçün bu, təmaslı seksual xarakterli sui-istifadənin baş verdiyinə dair sübutun olmadığı onlayn cinayətlər üçün xüsusilə vacibdir.
- Cinayətkarın bir, qurbanın başqa bir ölkədə ola bilməsi ilə UCİSH cinayətləri coğrafi sərhədləri keçə bilər. Uşaqların onlayn cinsi istismarı hallarında xidmət təminatçısı çox vaxt başqa yurisdiksiyanın rezidenti olur. Buna görə də UCİSH-nın qarşısının alınması və onunla mübarizəyə hüquqi yanaşmalar uşaqlara münasibətdə seksual cinayət törədənlərin uşaqların daha zəif ola biləcəklərini bildikləri ölkələrdə toplaşmasının qarşısının alınması məqsədilə mümkün dərəcədə əlaqələndirilməli və uyğunlaşdırılmalıdır.
- İnternetin uşaqlara münasibətdə seksual xarakterli sui-istifadə materiallarının baxılması və ya paylaşılmasındakı rolu, bəzən kommunikasiya məlumatlarının (nə yazıldığı və ya deyildiyi deyil, kommunikasiyanın "kim" tərəfindən, "harada", "nə vaxt", "necə", "kiminlə" aparıldığı) uşaqları onlayn rejimdə cinsi istismar edən şəxslərin müəyyən edilməsinin yeganə yolu olduğunu göstərir. Xüsusi səlahiyyətli orqanlara kommunikasiya məlumatlarına müstəqil nəzarət səlahiyyətlərinin verilməsi daxil olmaqla, müdafiə mexanizmləri vacibdir. Səlahiyyətli orqanlar konkret istintaq çərçivəsində müəyyən bir qanuni məqsəd üçün sözügedən kommunikasiyaya çıxışın nə üçün vacib olduğunu, bunun nail olunacaq məqsədə nə dərəcədə proporsional olduğunu göstərməlidirlər.

## Qabaqcıl təcrübə

- Hazırda əhatəli qanunvericiliyi olmayan ölkələrdə bu məsələlərin həlli üçün ilkin addım beynəlxalq hüquqi standartlarla uyğunlaşmaqdır, bundan sonra əhatəli və effektiv milli qanunvericiliyin hazırlanması dəstəklənə bilər.
- Kibercinayətkarlıq haqqında Avropa Şurası konvensiyası (həmçinin "Budapeşt konvensiyası" adlandırılır) və Uşaqların cinsi istismar və seksual xarakterli hərəkətlərdən müdafiəsinə dair Avropa Şurası konvensiyası (həmçinin "Lansarote konvensiyası" adlandırılır) cinayət hüququ islahatı və qurbanlar üçün nəzərdə tutulan xidmətlərlə bağlı daha geniş islahat üçün istinad nöqtəsi kimi xidmət edir. Cinayətlərin konkret Təsvirlərinin, eləcə də kriminallaşdırılmış davranışların cəzalandırılmasını tələb edən müddəaların daxil olduğu, beləliklə, cinayətkarların daha effektiv təqibinə, qurbanlar üçün xidmətlərin göstərilməsinə imkan yaradan bu alətlər uşaqlara münasibətdə cinsi istismar və seksual xarakterli hərəkətlərlə mübarizə üçün effektiv vasitə, effektiv qanunvericilik bazasının məlumatlılıq əsasında yaradılması üçün faydalı resursdur.

- Lansarote konvensiyası uşaqlarla işləyən şəxslərin seçilməsi, işə qəbulu və təlimi kimi qabaqlayıcı tədbirlər, eləcə də cinayətkarlar və potensial cinayətklarlar üçün monitorinq tədbirləri və təlimatlar təmin edir. Lütfən, nəzərə alın ki, Avropa Şurasına daxil olmayan ölkələr bu konvensiyalara qoşula bilərlər.
- Razılaşdırılmış ölçü meyarları qanunvericilikdən istifadənin effektivliyinin izlənməsinə və haqqında hesabatın verilməsinə imkan yaradacaq. Effektivlik ölçülərinə minimum bunlar daxil olmalıdır: cinayətlərin açılma səviyyəsi və müəyyən edilmiş qurbanların sayı.
- luksemburq tovsiyeleri ola biler mi (bax: Potensial 21) qanunvericilikdə istifadə ediləcək UCİSH ifadələrinin tam leksikonunun tam izlənilməsi üçün praktik təlimat təklif edir.

## Əlavə təlimat və dəstək

- Müvafiq beynəlxalq sazişlər haqqında daha ətraflı məlumat bu ünvanlardan əldə edilə bilər: www.ohchr.org/en/ professionalinterest/pages/crc.aspx və www.ohchr.org/en/professionalinterest/pages/oPSCCRC.aspx
- Avropa Şurasının Budapeşt və Lansarote konvensiyası haqqında daha ətraflı məlumat üçün: www.coe.int/en/web/conventions/full-list
- Lüksemburq təlimatları haqqında daha ətraflı məlumat üçün: www.luxembourgguidelines.org
- İtkin Düşmüş və İstismar Edilmiş Uşaqlarla bağlı Məsələlər üzrə Beynəlxalq Mərkəz (ICMEC) dünya miqyasında milli qanunvericilikləri araşdırıb təhlil edərək başqa ölkələrin faydalana biləcəyi qabaqcıl təcrübələri və faydalı modelləri müəyyən edir. ICMEC-in'"Uşaq pornoqrafiyası: Nümunəvi qanunvericilik və qlobal' qiymətləndirmə" adlı nəşri ölkələrin qanunvericiliklərini təkmilləşdirən/gücləndirən zaman nəzərə ala bilməsi üçün hüquqi baza təmin edir. Ətraflı məlumat üçün ICMEC veb-saytına baxa bilərsiniz:  www.icmec.org
- ECPAT və YUNİSEF kimi başqa beynəlxalq təşkilatlar UCİSH-nın qarşısının alınması və onunla mübarizə sahəsində qanunvericilik və siyasətləri araşdırır və təhlil edirlər, ətraflı məlumat onların veb-saytlarından əldə edilə bilər :  www.unicef.org/protection i www.ecpat.net

# Potensial 4 – İxtisaslaşmış hüquq mühafizəsi

## Anlayış

- Uşaqlara münasibətdə həm onlayn, həm də oflayn cinsi istismar və seksual xarakterli hərəkətlərin istintaqının aparılması, dəstəklənməsi və əlaqələndirilməsi sahəsində birbaşa səlahiyyətli hüquq-mühafizə potensialı.
- Onun məqsədi ictimaiyyəti qorumaqdır və o:
  - **Məlumat alır** – beynəlxalq hüquq-mühafizə orqanlarından, ictimaiyyətdən, sənaye sektorundan (ABŞ İtkin Düşmüş və istismar Edilmiş Uşaqlarla bağlı Məsələlər üzrə Mərkəz daxil olmaqla) və qeyri-hökumət təşkilatlarından (Qaynar xətlər daxil olmaqla) UCİSH barədə hesabatların alındığı ixtisaslaşmış yer kimi çıxış edir.
  - **Məlumatları inkişaf etdirir** – istintaqın aparılmasına imkan vermək üçün bildirilmiş məlumatları etibarlı fəaliyyət üçün əsas verən məlumata çevirir.
  - **Məlumatlar əsasında hərəkət edir** – UCİSH qurbanlarını qorumaq və müdafiə etmək, cinayətkarları tutmaq üçün istintaq aparır.
- Bu potensial hüquq-mühafizə orqanlarının əməkdaşlarının yuxarıda ətraflı təsvir edilən, müsbət məhkəmə nəticələrinə gətirib çıxaran funksiyaları yerinə yetirməyə imkan verən bilik, bacarıq, sistem, vasitə və resurslara malik olmasını nəzərdə tutur.
- Çoxtərəfli yanaşma əsasında çalışan hüquq-mühafizə orqanı əməkdaşları uşaqların müdafiəsi üzrə işçi qüvvəsinin və qeyri-hökumət təşkilatlarının UCİSH istintaqları zamanı və onlardan sonra qurbanlara təmin edilən dəstəyin gücləndirilməsindəki rolunu başa düşürlər. Onlar işlərində qurbanların hər zaman diqqət mərkəzində olmasını və istintaqlarının uşaqların müdafiəsi üzrə qabaqcıl prinsiplər əsasında aparılmasını təmin etmək məqsədilə istintaqlara uşaqların müdafiəsi üzrə peşəkarları cəlb edirlər.

## Nə üçün lazımdır?

- İxtisaslaşmış potensial daha çox təqibin müvəffəqiyyətlə nəticələnməsinə, qorunan qurbanlarının sayının artmasına və cinayətlərin qarşısının daha yaxşı alınmasına təminat verməklə ölkənin hüquq mühafizə orqanlarının UCİSH məlumatlarına effektiv tədbirlərlə cavab verməsinə imkan yaradacaq.
- Bu, təmin etdikləri məlumat əsasında effektiv fəaliyyət aparılacağını, qurbanlarla düzgün rəftar ediləcəyini, onların istintaq müddətində və daha sonra dəstəklənəcəyini bilən ictimaiyyət və üçüncü tərəfdə UCİSH məlumatlarının verilməsinə münasibətdə inam yaradır.
- Tələb olunan bilik, bacarıq, sistem və vasitələrə malik hüquq mühafizə orqanı əməkdaşları olan ölkələr mürəkkəb UCİSH istintaqlarını idarə edə və əlaqələndirə, sərhədləri aşan istintaqlar aparmaq üçün beynəlxalq hüquq mühafizə orqanları ilə effektiv qarşılıqlı əlaqə saxlaya biləcəklər.
- Milli hüquq-mühafizə orqanı daxilində vahid koordinasiya mərkəzi ictimaiyyətin və üçüncü tərəflərin verdiyi bütün UCİSH məlumatlarının qeydə alınmasını, risk qiymətləndirilməsinin aparılmasını, məlumatların uyğunlaşdırılmış, əlaqələndirilmiş, səmərəli və effektiv şəkildə təsnif edilməsini təmin edir.

## Qabaqcıl təcrübə

- Hazırda UCİSH üzrə ixtisaslaşmış hüquq-mühafizə potensialı olmayan ölkələrdə milli hüquq-mühafizə orqanı bu potensialı müəyyən etməli və onun formalaşdırılması üçün öhdəlik götürməlidir; bura minimum müddətə (təklif edilən minimum iki ildir) vəzifədə qalacaq ixtisaslaşmış əməkdaşların müəyyən edilməsi, bu resursların yerləşdirilməsi üçün müvafiq məkanın ayrılması, əsas avadanlıqların əldə edilməsi, əməkdaşların psixoloji sağlamlığı və rifahına dəstək, bütövlükdə ölkə ərazisində yerli hüquq mühafizə orqanları üçün UCİSH mövzusunda məlumatlılığın artırılması təliminin hazırlanması və təmin edilməsi daxildir. Artıq UCİSH üzrə ixtisaslaşmış hüquq-mühafizə potensialı olan, lakin çoxtərəfli yanaşma formalaşdırmağa ehtiyacı olan ölkələrdə işə müstəntiqlərlə yanaşı uşaqların müdafiəsi üzrə ixtisaslaşmış peşəkarların cəlb edilməsi ən birinci vacib addımdır. UCİSH istintaqının planlaşdırılması və həyata keçirilməsi müddətində hər zaman uşaqların müdafiəsi üzrə hüquq-mühafizə orqanları üçün nəzərdə tutulan qabaqcıl təcrübəyə əməl edilməlidir; bu, uşaqların ehtiyaclarının və hüquqlarının hər zaman üstün tutulmasını təmin edəcək. Bütün tərəflərin iştirakını nəzərdə tutan çoxtərəfli yanaşma qurbanların daha yüksək səviyyədə müdafiə olunmasını və dəstəklənməsini təmin edir, qurbandan ən yaxşı sübutun əldə edilməsinə kömək edir və təqibin müvəffəqiyyətli olması ehtimalını yüksəldir. Qabaqcıl təcrübənin region miqyasında paylaşılması da arzuolunandır.

## Əlavə təlimat və dəstək

- Dünyada yuxarıda qeyd edilən çoxtərəfli yanaşmadan istifadə edən, ixtisaslaşmış UCİSH potensialının müəyyən edilməsində və təmin edilməsində təcrübəsi olan çoxsaylı milli hüquq-mühafizə orqanları mövcuddur. Bu orqanlardan tövsiyə və dəstək İnterpol (www.interpol .int) vasitəsilə xahiş edilə bilər, bundan sonra İnterpol ölkəni qarşılıqlı razılaşma əsasında tərəfdaş hüquq mühafizə orqanı ilə əlaqələndirir.

# Potensial 5 – Məhkəmələr və dövlət ittihamçıları

## Anlayış

- UCİSH qurbanları üçün müsbət məhkəmə nəticələrinin əldə edilməsinə imkan yaratmaq üçün tələb olunan mütəxəssis biliyi və bacarıqlarına malik olan məhkəmələr və dövlət ittihamçıları.
- Məhkəmə prosesində qurbanların ehtiyacları üstün tutulur və proses müddətində müvafiq dəstək təmin edilir.
- UCİSH işlərinə baxan məhkəmələr və dövlət ittihamçıları UCİSH işlərinin baş tuta biləcəyi şərait və kontekst, qurbanların/şahidlərin potensial zəifliyi, cinayətkarların metodları və profilləri haqqında birbaşa məlumatlılığa və anlayışa malik olmalıdırlar.
- Qurbanlar və şahidlər emosional və psixoloji dəstəkdən istifadə imkanına malikdirlər.
- Məhkəmələr uşaqlara qarşı seksual cinayət törədənlərin təşkil etdiyi riski, müvafiq qanunvericiliklə müəyyən edilmiş parametrlər çərçivəsində cinayətin və cəzanın ağırlıq dərəcəsini başa düşürlər.

## Nə üçün lazımdır?

- Seksual xarakterli sui-istifadəyə və/və ya istismara məruz qalmış uşaqların və gənclərin məhkəmə prosesində səmərəli iştirak edə bilməsi, proses boyunca iştiraklarını davam etdirməsi üçün yüksək səviyyəli dəstək tələb olunur.
- Qurbanlar məhkəmə prosesinin hər hansı mənfi və ya uzunmüddətli emosional və ya psixoloji zərərindən qorunmalıdırlar.
- Müvafiq bilik və bacarıqlara malik hakimlər və dövlət ittihamçıları məhkəmə prosesində iştirak edən hər kəsin UCİSH işlərinə mənfi təsir edə biləcək amilləri tam başa düşməsini təmin edə, lazımi hüquqi prosesinin izlənməsinə imkan yaratmaqla mənfi təsirləri azalda bilərlər.
- Təqiblərin müvəffəqiyyətlə aparılması ictimaiyyətin və qurbanların məhkəmə prosesinə inamını artıracaq, bu isə öz növbəsində daha çox insanı hüquq-mühafizə orqanlarına UCİSH barədə məlumat verməyə təşviq edəcək ki, bu da cinayətkarlara çəkindirici təsir göstərəcək.

## Qabaqcıl təcrübə

- Qurbanların ölkənin müvafiq hüquqi prosedurları üçün maneə təşkil etməyən effektiv dəstəklə təmin edilməsi mütəxəssis bilik və bacarıqlarına malik insanlar tərəfindən hazırlanmalı və təmin edilməlidir. Bu dəstək nizamnaməsi olan və ya olmayan müxtəlif təşkilatlardan əldə edilə bilər.
- Uşaqların və ya gənclərin etibarlılığına mənfi təsir edə biləcək amillər məhkəmə və dövlət ittihamçıları tərəfindən bu amillərin balanslaşdırılması və məhkəmə icraatlarına mənfi təsirinin qarşısının alınması məqsədilə başa düşülməli və nəzərə alınmalıdır. Nümunələrə qurbanların təzadlı məlumat verməsi, cinayət mühakiməsi prosesində iştirak etməyə istəksizliyi daxil ola bilər.
- Qurbanların proses boyunca dəstəklənməsinin təmin edilməsi məqsədilə məhkəmədən əvvəl, məhkəmə zamanı və sonra konkret tədbirlər mövcud olmalıdır. Nümunələrə daxildir:
    - İcraatların qurbanlarına yaşlarına uyğun dillə izah edilməsi
    - Mümkün və məqsədəuyğun olduqda, valideynlərin və ya qəyyumların cəlb edilməsi
    - Sübutların verilməsi üçün canlı video linki kimi qeyri-standart metodlardan istifadəyə icazə verilməsi.

- Dövlət ittihamçıları mövcud dəstək növləri və əhatə dairəsindən xəbərdar olmalı, tələb olunduqda, uşaq və ya gəncləri bu dəstəyə (yaxud onların valideynlərinə/qəyyumlarına/baxıcılarına) yönləndirməlidirlər.
- UCİSH işlərinə cəlb olunmuş məhkəmə heyəti üçün psixoloji və sağlamlıq dəstəyi təmin edilməlidir.

## Əlavə təlimat və dəstək

- Gənc qurbanların və şahidlərin müalicəsi üzrə təlimatlara dəqiqliklə əməl edilməlidir. BMT Uşaq qurbanlar və cinayət şahidlərilə əlaqəli məsələlərdə ədalət mühakiməsi barədə təlimatlar hazırlamışdır (www.unodc.org). Nümunə olaraq Birləşmiş Krallığın milli təlimatları ilə burada tanış olmaq olar – www.cps.gov.uk/publications/docs/best_evidence_in_criminal_proceedings.pdf.

# Potensial 6 - Cinayətkarlarla rəftarın idarə edilməsi

## Anlayış

- Cinayətlərin təkrar törədilməsinin qarşısının alınması məqsədilə uşaqlara qarşı seksual cinayətlərdə təqsirli şəxslərin idarə edilməsi və reabilitasiyası. Bura uşaqlara qarşı seksual hüquq pozuntularının bütün növləri – həm onlayn, həm real həyatda- daxildir. Sistem əhatə edir:
    - Tutulma və ya həbsdə saxlanma zamanı birbaşa nəzarət
    - Həbsdən və ya həbsxanadan azad edildikdən sonra təqsirli şəxslərin icma daxilində idarə edilməsi
    - Təqsirli şəxslər haqqında məlumatların ölkə səviyyəsində və beynəlxalq səviyyədə davamlı olaraq toplanması, təhlili və paylaşılması.
- Fiziki şəxsin hüquq pozuntularının qeydə alınması üçün seksual cinayət törədənlərin ölkə reyestri (milli qanunvericiliyə müvafiq qaydada). Bu, müvafiq orqanlarla paylaşıla və onların icma daxilində yarada biləcəyi riskin qiymətləndirilməsinə yardım edə bilər.
- Təqsirli şəxslərin icma daxilində idarə edilməsinə yardım üçün hüquqi alətlərin (məsələn, məhkəmə əmrləri) təmin edilməsi. Onlar məhkəmə işinin mahiyyətindən asılı olaraq təqsirləndirilən şəxslərə uyğunlaşdırılmış şərt və ya qadağaların tətbiq edilməsinə imkan verə bilər.

## Nə üçün lazımdır?

- Uşaqlara qarşı seksual cinayətdə təqsirli şəxslərin idarə edilməsi və reabilitasiyası sistemi onların uşaqlara zərər verməyə davam etmək imkanlarını məhdudlaşdıracaq.
- Bu, səlahiyyətli orqanları uşaqlara qarşı seksual cinayətdə təqsirli şəxslərin icma daxilində yaratdığı riski idarə etmək üçün şəffaf və davamlı mexanizmlə təmin edir.
- Bu, xaricdə uşaqların uşaqlara qarşı transmilli seksual cinayətdə təqsirli şəxslərin yaratdığı risklərdən qorunması üçün mexanizm təmin edir.
- Seksual cinayətdə təqsirli şəxslərin ölkə üzrə reyestri müvafiq, dəqiq və yenilənmiş məlumatın bütün səlahiyyətli heyət tərəfindən asanlıqla əldə edilməsini təmin edir. Bu, hüquq-mühafizə orqanlarına və başqa müvafiq təşkilatlara təqsirli şəxslərin fəaliyyətlərini effektiv surətdə izləmək, məlumatları səmərəli və təhlükəsiz şəkildə paylaşmaq imkanı verir.

## Qabaqcıl təcrübə

- Tutulma və ya həbsdə saxlanma zamanı birbaşa nəzarət
    - Hüquq pozuntuları qeydə alınır və ölkənin mərkəzi məlumat bazasına yüklənir
    - Məlumatlar müvafiq orqanlarla paylaşılır
    - Təqsirli şəxslər həbsdə olduqları müddətdə reabilitasiya və təhsil proqramlarından iştirak edirlər.
- Azadlığa çıxdıqdan sonra təqsirli şəxslərlə rəftar:
    - Təqsirli şəxslərin icma daxilində idarə edilməsi üçün ixtisaslaşmış, idarələrarası yanaşmadan istifadə edilir və bu zaman prioritet təkrar pozuntu törətmək riski ən çox olanlara verilir.

- Təqsirləndirilən şəxs və onun təşkil etdiyi risk barədə bütün məlumatların daxil olduğu ixtisaslaşmış kəşfiyyat məlumatları bazası mövcud olmalıdır. Qeydlər bütün müvafiq orqanlar tərəfindən hər hansı təqsirli şəxsin azad olunma şərtlərinin izlənilməsi, risk qiymətləndirməsi və uyğunluğun təmin edilməsi məqsədilə müntəzəm olaraq yenilənməli və əlçatan olmalıdır.
- Xüsusən hüquq-mühafizə və sosial xidmət təşkilatları kimi orqanlar təqsirli şəxslərin idarə edilməsi məqsədilə birlikdə çalışır, məlumatları paylaşırlar. Bura təqsirləndirilən şəxslər yurisdiksiyadan kənara çıxmağa cəhd edən zaman beynəlxalq hüquq mühafizə tərəfdaşları ilə məlumatların paylaşılması daxildir.
- Təqsirli şəxslərin uşaqlar üçün təşkil etdiyi konkret risklərin idarə edilməsi üçün uşaqlarla işləməyə icazə verilməməsi və ya uşaqlarla təmasın məhdudlaşdırılması, yaxud səyahət məhdudiyyətlərinin qoyulması kimi azad olunma şərtlərinin tətbiqi nəzərə alına bilər.
- Hüquq mühafizə orqanlarını uşaqların uşaqlara qarşı seksual xarakterli cinayət törətmiş şəxslərin icma daxilində yaratdığı riskdən qorunması üçün lazım olan məlumat və səlahiyyətlə təmin edən bildiriş tələbləri və məhkəmə əmrləri sistemi.

## Əlavə təlimat və dəstək

- Birləşmiş Krallığın Hüquq Pozuntularına Nəzarət üzrə Milli Xidməti seksual cinayətdə təqsirli şəxslərin icma daxilində idarə edilməsinə və onların təşkil etdiyi riskin qiymətləndirilməsinə son yanaşmaların qiymətləndirməsini dərc etmişdir: https://www.gov.uk/government/uploads/system/uploads/attachment_data/file/308159/sex-offender-management-and-dynamic-risk.pdf
- ABŞ-ın Seksual Xarakterli Cinayət Törətmiş Şəxslərin İdarə Edilməsi Mərkəzinin veb-saytında cinayət törətmiş şəxslərin idarə edilməsi barədə müxtəlif məlumatlar mövcuddur: http://www.csom.org/

# Potensial 7 – Yalniz shekil bazasidir mi yoxsa elektron melumat bazasi mi

## Anlayış

- Hüquq-mühafizə orqanları qurbanları və təqsirli şəxsləri müəyyən etməyə yönəlmiş səylərin səmərəliliyini və effektivliyini təkmilləşdirmək məqsədilə İnterpolun uşaqların cinsi istisması üzrə beynəlxalq məlumat bazasından (ICSE DB) istifadə edirlər.
- Tələb olunan hallar üçün uşaqlara münasibətdə seksual xarakterli hərəkətlər üzrə milli məlumat bazası mövcuddur və hüquq-mühafizə orqanları ondan qurbanları və təqsirli şəxsləri müəyyən etməyə yönəlmiş səylərin səmərəliliyini və effektivliyini təkmilləşdirmək məqsədilə istifadə edirlər.

## Nə üçün lazımdır?

- Uşaqlara qarşı seksual xarakterli hərəkətlərə dair materialların onlayn mübadiləsi çoxsaylı yurisdiksiyalar arasında aparılır. Nəticədə hüquq mühafizə orqanlarının məlumatları paylaşmaq məqsədilə həm ölkə səviyyəsində, həm də beynəlxalq səviyyədə əməkdaşlıq etməsi tələbi ortaya çıxmışdır
- Ölkə səviyyəsində və beynəlxalq səviyyədə şəkil bazasına çıxış imkanı hüquq-mühafizə orqanlarının qurbanın artıq müəyyən olunduğu və ya materialların artıq başqa hüquq-mühafizə orqanı tərəfindən tədqiq olunduğu hallarda hüquq-mühafizə orqanlarının uşaqlara qarşı seksual xarakterli hərəkətlərə aid materialları təkrar araşdırması riskini azaldır.
- Ölkə daxilində uşaqlara qarşı seksual xarakterli hərəkətlərə aid milli şəkil bazasının mövcudluğu hüquq mühafizə orqanı əməkdaşlarına qurban və təqsirli şəxsin müəyyən edilməsində yardım məqsədilə şəkildə əks olunan məlumatlardan istifadə etmək imkanı verir.
- ICSE məlumat bazası və milli bazanın məzmunu hüquq-mühafizə orqanlarının əməliyyat potensialının, milli və beynəlxalq səviyyələrdə əməkdaşlığın daha da gücləndirilməsi məqsədilə video material, ICSE seriya nömrələri, İnterpol identifikasiya məlumatları kimi elementlərin daxil edilməsi məqsədilə tədricən təkmilləşə bilər.
- ICSE məlumat bazasının istifadəçiləri cinayet olkesi ifadesi butov olkeni ittiham altinda qoyur potensial cinayet de shubheli bilinenin yashadigi olke olmalidir və yerinin müəyyənləşdirilməsinə yardım üçün unikal yerli biliklər təmin edirlər, bu isə qurban və təqsirli şəxsin müəyyənləşdirilməsi imkanlarını daha da artırır.

## Qabaqcıl təcrübə

- ICSE məlumat bazası uşaqların cinsi istisması barədə hüquq-mühafizə orqanları tərəfindən ələ keçirilən materialların yenilənməsi və təhlili məqsədilə məlumatlara və vasitələrə təcili qlobal çıxış imkanı yaradan kəşfiyyat və təhqiqat alətidir. ICSE məlumat bazasına çıxış İnterpolun 190 üzv ölkədə milli mərkəzi büroları əlaqələndirən qlobal təhlükəsizlik şəbəkəsi (I-24/7) vasitəsilə həyata keçirilir.
- ICSE mərkəzi bazasına qoşula bilmək üçün bir sıra şərtlər ödənməlidir; konkret olaraq ixtisaslaşmış UCİSH hüquq-mühafizə bölməsi/komandası (bax: Potensial 4) və uşaqlara qarşı seksual xarakterli hərəkətlərə aid materialların hazırlanması, saxlanması və/və ya yayılmasını cəzalandıran və sanksiyalar müəyyən edən qanunvericiliyin mövcudluğuna dair dəlil (bax: Potensial 3).
- Uşaqlara qarşı seksual xarakterli hərəkətlərə aid materialların paylaşılmasına və saxlanmasına imkan verən milli məlumat bazasının mövcudluğu üçün əsas tələb bu fəaliyyəti tənzimləyən müvafiq qanunvericiliyin olmasıdır.

- Bazaya çıxışı olan bütün əməkdaşlara həm ICSE, həm də milli məlumat bazasının istifadəsi üzrə təlim keçilməlidir. Bura şəkillərin təsnifatı, məlumat bazalarının funksionallığı və qurbanların müəyyənləşdirilməsi təlimləri daxildir.

## Əlavə təlimat və dəstək

- ICSE məlumat bazasına qoşulmaq barədə ətraflı məlumat üçün: www.interpol .int . Milli məlumat bazasının təsis edilməsi üzrə qabaqcıl təcrübə öz variantlarını hazırlamış və icra etmiş bir sıra ölkələr tərəfindən təmin edilə bilər. Bu ölkələrdən tövsiyə və təlimat İnterpol vasitəsilə əldə edilə bilər.

# Potensial 8 – Kompleks dəstək

## Anlayış

- UCİSH qurbanları sui-istifadə halının birbaşa təsirinin öhdəsindən gəlmək və yaşadıqları zərərin təsirlərinin aradan qaldırılması üçün planlaşdırılmış kompleks dəstəklə təmin edilirlər.
- Qurban müəyyən edilən kimi risk qiymətləndirməsi nəticəsində təxirəsalınmaz yardım planı üçün məlumat təmin edilir.
- Qurbanların istintaq müddətində, hüquqi icraatlar zamanı və daha sonra dəstəklənməsi üçün tam inteqrasiya olunmuş və fərdi kompleks dəstək planı mövcuddur.
- Göstərilən dəstəyin sonunda qurbanlar müstəqil surətdə vəziyyətin öhdəsindən gələ bilirlər.
- Dəstək UCİSH qurbanlarına dəstəyin göstərilməsi sahəsində təlim keçmiş və təcrübəli peşəkarlar tərəfindən təmin edilir.

## Nə üçün lazımdır?

- UCİSH qurbanları özlərini qurban olaraq görməyə, inkar vəziyyətinə ola bilərlər. Onlar məcbur edilməyə, dilə tutulmağa, yaşıdlarının təzyiqinə, onlara qarşı hüquq pozuntusuna yol verən şəxslərin məsul vəzifələrindən sui-istifadəsinə qarşı həssas ola bilərlər, buna görə də onların iştirakının və əməkdaşlığının qorunması üçün istintaq və hüquqi icraatlar zamanı dəstək təmin edilməlidir.
- Çox vaxt qurbanlar ən yaxınları tərəfindən təcrid edildiklərini hiss edir, məruz qaldıqları hüquqa zidd davranışın "normal" olmadığını, ciddi cinayət təşkil etdiyini qəbul edənədək uzunmüddətli və peşəkar dəstək tələb edirlər.
- Çox vaxt qurbanlar belə təcrid olunma hislərinə görə depressiyaya, özlərinə zərər verməyə və ya özünə qəsdə daha meylli və həssas ola bilirlər.
- Sui-istifadənin təsirlərinin hüquq pozuntusundan illər sonra davam etdiyi nəzərə alındıqda, çox vaxt psixi problemlərlə əlaqədar uzunmüddətli dəstək vacib olur.

## Qabaqcıl təcrübə

- Uşaqların müdafiəsi üzrə beynəlxalq standartlar istintaq və məhkəmə icraatları müddətində qurbanlarla işi aşağıdakı qaydada dəstəkləyir və məlumatla təmin edir:
  - Həssas uşaqlardan ən yaxşı sübutların toplanmasına imkanın yaradılması
  - Sağlamlıq və rifahın məhdudlaşdırılmaq əvəzinə gücləndirilməsi
  - Qurbanların məruz qala biləcəyi risklərin idarə edilməsi və məhdudlaşdırılması
  - Qurbanların istintaq və ya məhkəmə icraatında iştirak etmək istəyib-istəmədiyindən asılı olmayaraq dəstəklənməsinin və müdafiəsinin təmin edilməsi.
- Uşaqların daha geniş rifahı nəzərə alınmalıdır, tələb olunduqda, bərpa və reabilitasiyalarının dəstəklənməsi məqsədilə başqa yerə köçürülmə və davamlı xidmətlər kimi daha geniş dəstək təmin edilməlidir.
- Səhiyyə sektoru tərəfindən müvafiq cavab tədbirləri həlledici əhəmiyyət daşıyır, belə ki, o, UCİSH halını aşkar edən və işi hüquq-mühafizə sektoruna və digər xidmətlərə yönləndirilən ilk sektor ola bilər.

- Sui-istifadənin aşkar edilməsi qarşısında hər hansı stereotip meydan oxunmalıdır və peşəkarlar qoruyucu, təqsirləndirməyən və töhmətdən uzaq münasibət aşılamağa çalışmalıdırlar.
- Fiziki şəxslərə qayğının göstərilməsi uşağın fərdi ehtiyacları haqqında məlumatlılığa əsaslanmalı və müvafiq təlim keçmiş şəxslər tərəfindən təmin edilməlidir.
- Kompleks dəstəyin göstərilməsi qurbanla ilk ünsiyyət nöqtəsindən başlayır və bütün mərhələlərdə ünsiyyət və təhlükəsizlik təmin edilməlidir.
- Hüquq-mühafizə orqanları və əsas funksiyaları uşaqlara qayğı və uşaqların rifahı olan nizamnamə əsasında təsis edilmiş orqanlar və ya QHT-lər arasında sıx əməkdaşlıq qurbanların bütün uşaq hüquqlarına hörmət edən hərtərəfli cavab tədbiri ilə təmin edilməsi üçün fundamental əhəmiyyət daşıyır. Bu əməkdaşlıq məlumatların paylaşılmasına, eləcə də mütəxəssislər tərəfindən alternativ qayğıdan istifadəyə, kompleks dəstək planın hazırlanmasına yardım edə bilər. Tələb olunan mütəxəssis dəstəyi xidmətlərinin növlərinə tibbi dəstək, müvəqqəti yerləşdirmə, maliyyə dəstəyi, təhsil, terapevt qayğısı, başqa yerə köçməkdə potensial uzunmüddətli yardım daxil ola bilər. Dəstək planı başlanğıcdan etibarən bu xidmətlərin mövcudluğunu nəzərə almalı və araşdırmalıdır.

## Əlavə təlimat və dəstək

- YUNİSEF qurbanların dəstək xidmətləri ilə təmin edilməsi sahəsində qabaqcıl təcrübələrin paylaşılması, potensialın və bacarıqların formalaşdırılması üçün bütün dünyada təşkilatlarla işləyir. Ətraflı məlumat üçün www.unicef .org/protection ünvanı vasitəsilə YUNİSEF-lə əlaqə saxlayın.

# Potensial 9 – Uşaqların müdafiəsi üzrə işçi qüvvəsi

## Anlayış

- UCİSH qurbanlarının dəstəklənməsi üçün təlim keçmiş, koordinasiya olunan bacarıqlı, mütəxəssis və rəsmi işçi qüvvəsi.
- Sosial xidmət əməkdaşlarına hüquq-mühafizə orqanları tərəfindən aparılan istintaq müddətində uşaqların dəstəklənməsi, ehtiyaclarının və onlara qarşı mövcud istintaqla bağlı və başqa risklərin qiymətləndirilməsi üçün təlim keçilir.
- Hüquq- mühafizə orqanı, sosial xidmətlər/uşaqlar üçün xidmətlər və səhiyyə xidmətləri kimi bütün müvafiq maraqlı tərəflər arasında UCİSH istintaqları üçün rəsmi iş prosedurları mövcuddur və rol və cavabdehliklər aydın başa düşülür.
- Sosial işçilər uşaqların sui-istifadəsinin müəyyən edilə biləcəyi bir sıra təşkilatlara, yaxud uşaqların sui-istifadə aşkar edə biləcəyi yerlərə, məsələn, məktəblərə, hospitallara və gənclik mərkəzlərinə müdafiə tövsiyələri təmin edir, onlarla sıx iş aparırlar.

## Nə üçün lazımdır?

- Sosial işçilər üçün mütəxəssis təliminin keçilməsi UCİSH qurbanlarına zərərin minimuma endirilməsi məqsədilə vaxtlı-vaxtında müvafiq dəstək verilməsini təmin edir, onlara hüquq-mühafizə orqanları tərəfindən aparılan istintaq, hüquqi icraatlar və sağlamlığın bərpasına yardım üçün dəstək verir.
- Sosial xidmətlər/uşaqlara xidmət və hüquq-mühafizə orqanı arasında effektiv birgə iş istintaq zamanı qurbanın ehtiyac və hüquqlarının prioritetləşdirilməsi deməkdir, bu da sonda onların sağlamlığının bərpasına fayda verir.
- Müəyyən edilmiş peşəkar standartlar (milli standart mövcud olmadığı halda beynəlxalq standartlar) səviyyəsində təlim keçmiş işçi qüvvəsi ölkə daxilindəki yerindən asılı olmayaraq qurbanlara davamlı və yüksək keyfiyyətli xidmətin göstərilməsini təmin edir.
- Uşaqların müdafiəsi üzrə fəaliyyəti qanunla tənzimlənən hesabatlı və şəffaf işçi qüvvəsi yüksək standartların qorunmasını, ictimaiyyətin göstərilməli olan xidmət səviyyəsindən xəbərdar olmasını təmin edir.

## Qabaqcıl təcrübə

- Hüquq-mühafizə orqanına UCİSH istintaqlarında hüquq-mühafizə əməkdaşları ilə birlikdə çalışmaları üçün sosial işçilərin daxil edilməsi uşaqların müdafiəsi strategiyasının qurbanların ehtiyaclarının və hüquqlarının prioritetləşdirilməsi məqsədilə hər bir istintaqa tətbiq edilməsini təmin edir.
- İxtisaslaşmaları zamanı bütün sosial işçilər üçün UCİSH mütəxəssis təliminin keçilməsi bütün sosial işçilərin cinayəti başa düşməsini təmin edir.
- Sosial işçilərin/uşaq xidmətlərinin əsas cavabdehliyi müxtəlif təminatçılar arasında göstərilən dəstəyin koordinasiyasının təmin edilməsi olmalıdır.
- Rifahlarının təmin edilməsi üçün UCİSH qurbanları ilə və UCİSH istintaqları üzərində çalışan işçi heyəti dəstək və sağlamlıq xidmətlərindən istifadə imkanı ilə təmin edilir.

## Əlavə təlimat və dəstək

- Sosial İşçilərin Beynəlxalq Federasiyası qabaqcıl təcrübə modellərini paylaşan və beynəlxalq əməkdaşlığı dəstəkləyən qlobal təşkilatdır. 116 ölkə bu Federasiyanın üzvüdür, daha ətraflı məlumat və təlimatlarla onun veb-saytında tanış olmaq mümkündür: www.ifsw.org. Daha ətraflı məlumat eyni zamanda yardımçı xidmətlər üçün kompetensiya modeli daxil olmaqla, bir sıra resursların daxil olduğu Qlobal Sosial Xidmət İşçi Qüvvəsi Alyansında (www.socialserviceworkforce .org) və "Marie Collins" Fondunda tapıla bilər (www.mariecollinsfoundation.org.uk).

# Potensial 10 – Təzminat, hüquqi müdafiə vasitələri və şikayət Mexanizmləri

## Anlayış

- UCİSH qurbanları və onların qəyyumları/baxıcıları üçün effektiv hüquqi müdafiə vasitələri və təzminatın təmin edilməsi.  Bura aşağıdakılar daxildir:
    - UCİSH qurbanlarının bərpasına kömək edən xidmətlər, o cümlədən, tibbi, psixoloji, sosial sosial qayğı, hüquqi, mənzil, təlim/təhsil xidmətləri
    - Əlçatan, ədalətli və şəffaf təzminat mexanizmləri
    - Əlçatan müdafiə xidmətləri, o cümlədən özünümüdafiənin dəstəklənməsi
    - Müstəqil şikayət proseduru
- UCİSH qurbanlarının mövcud xidmətlərdən istifadə edə bilməsi üçün mümkün ən yaxşı imkanlara malik olmasını təmin etmək üçün prosedurlar tətbiq edilir. Bura xidmətlər haqqında uşağa həssas məlumat və məsləhətin təmin edilməsi daxildir..

## Nə üçün lazımdır?

- Sosial stiqma, şəxsi və ya ailədən qaynaqlanan xəcalət və qorxu hissi  adətən UCİSH qurbanları üçün özlərini qurban kimi qəbul etməyi və açıq şəkildə hüquqi müdafiə vasitələrinə müraciət etməyi və ya öz travmaları haqqında danışmağı qeyri-mümkün və ya ağlasığmaz edir.
- Adətən UCİSH qurbanlarına qarşı zorakılıq törədənlər bunu öz qurbanları üzərində güc və ya nəzarət tətbiq edərək həyata keçirirlər; müvafiq hüquqi müdafiə vasitələri və ictimai təzminat qurbanların bu qeyri-tarazlığı düzəltməsinə kömək edəcəkdir..

## Qabaqcıl təcrübə

- Xidmət və prosedurların təmin edilməsi beynəlxalq hüquqa əsasən insan hüquqları sahəsində əsas müqavilələrdə, beynəlxalq standartlarda və regional insan hüquqları mexanizmlərində təsbit edilmiş əsaslı öhdəlikdir.
- Həm qısamüddətli, həm də uzunmüddətli xidmətlər mövcud olmalıdır. Xüsusilə, həm uşaqlıq dövründə, həm də UCİSH nəticələri yetkinlik dövründə də davam edə biləcəyindən daha sonra psixoloji və terapevtik dəstək təmin edilməlidir.
- Xidmətlər əlavə travmanın qarşısını almaq və qurbanların fiziki və psixoloji bərpasını və sosial reinteqrasiyasını təşviq etmək məqsədilə lazımsız prosedur və müsahibələrdən yayınaraq uşağın cinsini, yaşını, yetkinlik səviyyəsini və hüquq və ehtiyaclarını nəzərə almalıdır.
- Cinsi istismar və/və ya seksual xarakterli hərəkətlərə məruz qalmış uşaqlar və xüsusilə, seksual xarakterli hərəkətlər nəticəsində hamilə qalmış qızlar və ya İİV/QİÇS-ə və ya digər cinsi yolla ötürülən xəstəliklərə  yoluxmuş uşaqlar  yaşa uyğun tibbi məsləhət və tövsiyələr almalı və zəruri fiziki və psixi tibbi yardım və dəstəklə təmin edilməlidirlər.

## Əlavə təlimat və dəstək

- Birləşmiş Millətlər Təşkilatının BMT Uşaq qurbanlar və cinayət şahidlərilə əlaqəli məsələlərdə ədalət mühakiməsi barədə təlimatlarından məlumat əldə etmək mümkündür. Bununla yanaşı Birləşmiş Millətlər Təşkilatının *Cinayətlərin Qarşısının alınması və Cinayət Məhkəməsi sahəsində*

*Uşaqlara qarşı Zorakılığın Aradan Qaldırılması üzrə Model Strategiyalar və Praktiki Tədbirləri, A/C.3/69/L.5, Bölmə V – Zorakılığın uşaq qurbanlarına effektiv müdafiənin təmin edilməsi və the Birləşmiş Millətlər Təşkilatının Təhlükəsiz və Uşağa həssas Məsləhət, Uşaqlara qarşı Zorakılıqla Mübarizə üzrə Şikayət və Hesabat Mexanizmlərindən –* www.srsg.violenceagainstchildren .org/page/849 əlavə məlumat almaq mümkündür.

- BMT-nin Uşaq Hüquqları Haqqında Konvensiyasına Kommunikasiya Proseduru haqqında Üçüncü Fakültativ Protokol uşaq hüquqlarının pozulması üzrə beynəlxalq şikayət mexanizmi müəyyən edir www.ohchr.org/EN/ProfessionalInterest/Pages/OPICCRC.aspx

# Potensial 11 – Uşaq Yardım Xətti

## Anlayış

- Uşaqlar və gənclər üçün vətəndaş cəmiyyəti təşkilatları və ya hökumət tərəfindən idarə olunan dəstək və müdaxilə xidməti.
- Göstərilən xidmətlər seksual xarakterli hərəkətlər haqqında məlumat verib-verməməli olduğundan əmin olmayan uşaq və ya gəncin dəstəklənməsindən təhlükəli vəziyyətdə olan uşağın həmin vəziyyətdən çıxarılmasında birbaşa yardım göstərilməsinədək dəyişə bilər.
- İdeal halda xidmətlər məxfi, anonim və ödənişsizdir, həftənin yeddi günü gündə 24 saat təmin edilir və telefon vasitəsilə, həm də ismarıc, internet söhbət xidmətləri/internet ismarıcları, müzakirə forumları, elektron poçt və üz-üzə görüşlər kimi digər vasitələrlə/texnologiyalarla həyata keçirilə bilər.
- Uşaq yardım xətləri əsas sorğu xidmətləri ilə tərəfdaşlıq şəraitində fəaliyyət göstərir, təhsil müəssisələri, xəstəxanalar, hüquq-mühafizə, məhkəmə xidmətləri, sığınacaqlar və digər uşaq xidmətləri  ilə sıx əməkdaşlıq edir.

## Nə üçün lazımdır?

- Uşaqlar tək olmadıqlarını bilməlidirlər. Ailə üzvləri, dostları və ya qanuni xidmətlərlə danışarkən rahat hiss etmirlərsə, uşaqlar müraciət edə biləcəkləri anonim, məxfi dəstək xidmətinə birbaşa çıxışları olduğundan əmin olurlar.
- Uşaq yardım xətti ilə əlaqə adətən uşağın uşaq müdafiə xidmətləri ilə ilk qarşılıqlı əlaqəsi və başlanğıc nöqtəsi olur və qabaqcıl təcrübə onların daha çox xidmətdən istifadə etmək üçün əmin və güclü hiss etməsinə kömək edər.
- Uşaqlar anonim qalmaq lakin yenə də özlərinə və ya başqalarına qarşı seksual xarakterli hərəkətlər haqqında məlumat vermək istəyə bilər; bu yanaşma ölkələrə potensial cinayətlər haqqında kəşfiyyat məlumatları və informasiya  toplamağa və mümkün hallarda buna əsasən fəaliyyət göstərməyə kömək edəcək.

## Qabaqcıl təcrübə

- Yardım xəttinin hazırda mövcud olmadığı ölkələrdə ilk addım davamlılıq və istiqaməti təmin etmək üçün yardım xəttinin maliyyə mənbəyi və mülkiyyət hüququnun müəyyən edilməsidir.
- İstifadəyə açıq resursları və mövcud xidmətləri nəzərə alaraq yardım xəttinin təmin edəcəyi xidmət növünü təyin edin – məsələn, dinləmə, məsləhət və dəstək və ya müvafiq quruma yönləndirmə.
- Əsas istiqamət qurumların bir-biri ilə əməkdaşlıqda fəaliyyət göstərməsi üçün formalaşdırılmış şəbəkəsi yaradılmalıdır – uşaqların müdafiəsi üzrə əsas orqanlar və hüquq-mühafizə orqanları daxilində vahid əlaqə nöqtəsinin əldə edilməsi mütəxəssis köməyinə və dəstəyə birbaşa və asan çıxış təmin edir.
- Bütün işçilər işə başlamazdan əvvəl və davamlı olaraq onların uşaqlarla işləməyə uyğunluğunu qiymətləndirən yoxlamadan keçməli və vəzifələrini yüksək və ardıcıl standartlara uyğun olaraq yerinə yetirmələri üçün  zəruri təlim və məsləhət xidmətlərində iştirak etməlidirlər.  İşçilər həmçinin çətin hallar üzləşdikdə zəruri sosial dəstək almalıdırlar.

- Yardım xəttinə bildirilmiş hallara münasibətdə prioritetlərin müəyyən edilməsi və tədbirlərin görülməsi zamanı qanunvericiliyə və məlumatların qorunması sahəsində mövcud istənilən qaydalara uyğun olaraq riskə əsaslanan etibarlı qərar qəbuletmə prosesləri hazırlanmalı və həyata keçirilməlidir.
- Yardım xətti məktəblər və gənclər üçün təsisatlar daxilində, o cümlədən müvafiq onlayn platformalarda nişanlar yerləşdirməklə uşaq və gənclər arasında təşviq edilməlidir.

## Əlavə təlimat və dəstək

- "Child Helpline International" bütün dünyada ödənişsiz milli uşaq yardım xətlərinin yaradılmasını və gücləndirilməsini dəstəkləmək məqsədilə yerli, regional və ümummilli maraqlı tərəflər və tərəfdaşlarla fəaliyyət də daxil olmaqla bütün dünyada uşaqların müdafiəsi sistemlərini gücləndirməyə çalışır. Üzvlər və tərəfdaşlar öz xidmətlərini seminarlar, təlim və informasiya mübadiləsi vasitəsilə genişləndirmək üçün zəruri imkanlarla təmin edilir. Əlavə məlumatı www.childhelplineinternational.org. saytında əldə etmək olar.

# Potensial 12 – UCİSH üzrə qaynar xətt

## Anlayış

- Qanunsuz olduğu güman edilən internet materialları, o cümlədən uşaqlara qarşı seksual xarakterli hərəkətlər haqqında material barədə məlumat vermək üçün xüsusi qaynar xətt.
- Uşaqlara qarşı seksual xarakterli hərəkətlər haqqında material kimi təsdiqləndikdən sonra qaynar xətt məzmunun sənaye sektoru xidmətlərində baxışdan mümkün qədər tez və effektiv şəkildə çıxarılmasını və işin gələcək təhqiqat və qurbanın müəyyənləşdirilməsi üçün qaynar xətt tərəfindən UCİSH üzrə halların araşdırılması üzrə məsul milli hüquq-mühafizə orqanına yönləndirilməsini təmin etmək məqsədilə sənaye sektoru ilə əməkdaşlıqda fəaliyyət göstərir.
- Qaynar xətt qaynar xətlərin uşaqlara qarşı seksual hərəkətlər haqqında internet materiallarının bütün dünyada harada olmasından asılı olmadan yox edilməsi məqsədilə məlumat mübadiləsi üçün birgə fəaliyyət göstərən beynəlxalq şəbəkəsi INHOPE-un tərkib hissəsi kimi fəaliyyət göstərə bilər.
- INHOPE-un hesabatların qəbul edilməsi və işlənməsi üçün ümumi prosedurları izlənir və INHOPE-un qabaqcıl təcrübələr toplusuna riayət edilir.

## Nə üçün lazımdır?

- Qaynar xətt və ya məlumatvermə portalı İnternetdə rast gəlinən uşaqlara qarşı seksual xarakterli hərəkətlər haqqında olduğu güman edilən materialın bildirilməsi üçün əlçatan və təhlükəsiz platforma təmin edir.
- Effektiv qaynar xətt uşaqlara qarşı seksual xarakterli hərəkətlər haqqında materialın İnternetdən hostinq xidməti vasitəsilə effektiv şəkildə çıxarılmasına şərait yaradır, bu isə materialın istifadəsini azaldır.
- Effektiv qaynar xətt ictimaiyyəti və sənaye sektorunu haqqında məlumat verilmiş materialın qanunsuz olduğu aşkarlanarsa, sonrakı tədbirlər üçün müvafiq hüquq-mühafizə orqanına və/və ya İnternet Xidmət Provayderinə (ISP) ötürüləcəyindən əmin edir.

## Qabaqcıl təcrübə

- Uşaqlara qarşı seksual xarakterli hərəkətlər haqqında materialla effektiv şəkildə mübarizə üçün ölkələr öz milli vəziyyətlərinə uyğun olaraq protokollar tətbiq etməlidirlər. Sıfır təməl səviyyəsindən başlansa, qaynar xəttin tətbiqindən əvvəl qanunvericiliyin təftişi və mövcud qanunvericiliyə zəruri düzəlişlər (və ya yeni qanun layihəsinin hazırlanması) həyata keçirilməlidir.
- Qaynar xətt vasitəsilə qəbul edilmiş hesabatların qəbulu, prioritetlərin müəyyənləşdirilməsi, müvafiq fəaliyyət və istiqamətləndirmə üçün etibarlı və standartlaşdırılmış proseslər tətbiq edilməlidir. Onlar qaynar xətt və hüquq-mühafizə orqanı və qaynar xətt və İnternet Xidməti Provayderi arasında rəsmi qaydada razılaşdırılmalı, praktiki məqamlar və əlaqə nöqtələri müəyyənləşdirilməlidir.
- Uşaqlara qarşı seksual xarakterli hərəkətlər haqqında xaricdə yerləşdirilmiş material barədə istənilən məlumat əlaqə saxlanılacaq qaynar xətt mövcud deyilsə, Interpol vasitəsilə həmin ölkədəki hüquq-mühafizə orqanına yönləndirilməlidir.
- Qaynar xətt və ya məlumatvermə mexanizmi ictimai şəkildə təşviq edilməlidir.

## Əlavə təlimat və dəstək

- INHOPE Fondu bütün dünyada yeni internet qaynar xətlərinin inkişaf etdirilməsini dəstəkləyir. Bu qanunsuz materialın harada yerləşdirilməsindən asılı olmayaraq internetdə uşaqlara qarşı seksual xarakterli hərəkətlər haqqında material barədə məlumata cavab olaraq təcili tədbir görülə biləcəyini təmin edir. GSMA/INHOPE onlayn təlimat mövcuddur. Artıq qaynar xəttə malik olan ölkələr üçün INHOPE həmçinin qaynar xəttin uzunmüddətli inkişafını və bu mövzuda təhsili dəstəkləyir. Əlavə məlumatı www.inhope.org saytında əldə etmək olar.

# Potensial 13 – Təhsil Proqramı

## Anlayış

- UCİSH haqqında məlumatlılığın artırılması (həm onlayn, həm də oflayn) üçün milli təhsil proqramı – uşaqların, gənclərin, valideynlərin, qəyyumların, baxıcıların və təcrübəçilərin UCİSH, müdafiə olunma hüquqları, yardım və dəstək əldə edə və cinsi istismar və seksual xarakterli hərəkətlər barədə məlumat verə biləcəkləri yerlər haqqında informasiya ilə təmin edilməsi.
- Proqramın ismarıcları son tendensiyaları və nailiyyətləri ehtiva etməli və davamlı olaraq bütün ölkə ərazisində çatdırılmalıdır. Onlar mövzunun auditoriyaya potensial təsiri nəzərə alınmaqla həssaslıqla hazırlanmalıdır.
- Filmlər, dərs planları və onlayn təlim resursları daxil olmaqla cəlbedici, yaşa müvafiq resurslar təmin edilməlidir.

## Nə üçün lazımdır?

- Təhsil proqramı cinayətlə bağlı məlumatlılığı artırmaq və onun qarşısını almaq məqsədilə UCİSH mövzusunu məktəblərdə, digər rəsmi müəssisələrdə və icma quruluşlarında müzakirə etmək imkanı verir, o həmçinin uşaqları, gəncləri, qəyyumları, baxıcıları və təcrübəçiləri məsləhət və dəstək üçün üz tuta biləcəkləri yerlər və seksual xarakterli hərəkətlər barədə hara məlumat verə biləcəkləri haqqında informasiya ilə təmin edir.
- Proqram uşaqlara və gənclərə UCİSH ilə bağlı riskləri və onları qurban olacaq qədər həssas edə biləcək amilləri daha yaxşı anlamağa kömək edəcəkdir, həmçinin onları və valideynlərini/qəyyumlarını/baxıcılarını özlərini cinayətkarlardan qorumalarına imkan verəcək informasiya ilə təmin edəcəkdir.
- Proqram həmçinin uşaqlarla işləyən təcrübəçilərə UCİSH indikatorlarını müəyyənləşdirməkdə kömək edəcək və onların yardım xidmətlərindən istifadə və zorakılıq halları haqqında məlumatvermə zamanı qurbanları və onların ailələrini daha yaxşı dəstəkləmələrinə imkan verəcəkdir.

## Qabaqcıl təcrübə

- Proqram ismarıcların ardıcıllığını təmin etmək üçün  milli səviyyədə hazırlanmalı, lakin bütün yerli ərazilərdə həyata keçirilməlidir. İdeal şərtlərdə proqram ümummilli şəkildə tam yayılmasını təmin etmək üçün milli tədris proqramına daxil edilməlidir. O cinsi tərbiyə və münasibətlər kimi əlaqədar proqramlara daxil edilə bilər.
- Təhsil resurslarının milli koordinasiyası mesajları aktual və cari riskləri əks etdirən şəkildə saxlamaq üçün onların davamlı olaraq yenilənməsinə imkan verəcək.
- Konkret ölkə və ya region daxilində UCİSH ilə bağlı yerli halların qarşısını almalarını və mövzunun müzakirəsinə istənilən yerli əngəllərin öhdəsindən gəlmələrini təmin etmək məqsədilə kontekstə resurslar daxil edilməlidir. Uşaqlar resursların inkişaf etdirilməsinə cəlb edilməlidirlər.
- Uşaqlarla işləyən təcrübəçilər, uşaqların özləri və daha geniş ictimaiyyət üçün məsləhət, dəstək və resurslara asan çıxışı təmin etmək məqsədilə onlayn portal yaradıla bilər. İsmarıcların müvafiq və əlçatan olmasını təmin etmək üçün bu yaşa görə kateqoriyalara ayrıla bilər.
- İsmarıcların və resursların yayılmasını artırmaq üçün media imkanları, sənaye sektoru təşəbbüsləri və Daha Təhlükəsiz İnternet Günü kimi beynəlxalq təşəbbüslər maksimum dərəcədə genişləndirilməlidir.

- İsmarıcları həssas şəkildə çatdıra bilmələrini təmin etmək məqsədilə təhsil sahəsində mütəxəssislər üçün təlimlər təşkil edilməlidir.
- Resurslar və ya proqramlar uşaqların yardım alması üçün aydın maariflendirme metodlari ve ya merheleleri metne esasen əks etdirməlidirlər. Proqramı həyata keçirən mütəxəssislər dərslərdən sonra seksual xarakterli hərəkətlər və/və ya istismar barədə məlumatların açıqlanması ehtimalından xəbərdar olmalı və necə reaksiya verməli olduqlarını bilməlidirlər.

## Əlavə təlimat və dəstək

- Müxtəlif beynəlxalq maraqlı tərəflərdən mövcud qabaqcıl təcrübə resursları istifadə edilə bilər, lakin bunlar hər bir ölkə üçün uyğun olmalarını təmin etmək məqsədilə kontekstləşdirilmiş olmalıdır.
- "Insafe" internetin daha təhlükəsiz və daha yaxşı istifadəsini təşviq edən, insanların – xüsusilə, uşaqların və gənclərin – internetdən, mobil telefonlardan və digər onlayn texnologiyalardan pozitiv, təhlükəsiz və səmərəli şəkildə istifadə etməsinə imkan verən Məlumat Mərkəzlərinin Avropa şəbəkəsidir. Bu Məlumat Mərkəzlərinin həyata keçirdiyi təhsil fəaliyyəti haqqında daha ətraflı informasiya www.betterinternetforkids.eu saytından əldə edilə bilər.
- UNICEF bütün dünyada hökumətləri və vətəndaş cəmiyyəti təşkilatlarını uşaqlara qarşı seksual xarakterli hərəkətlər və onların istismarının qarşısını almaq məqsədilə informasiya və təhsilin təmin edilməsində dəstəkləyir. Əlavə məlumat www.unicef.org/protection saytından əldə edilə bilər.

# Potensial 14 – Uşaq İştirakı

## Anlayış

- Uşaqlar və gənclər ideyalarını ifadə etməyə və UCİSH ilə bağlı siyasət və təcrübələrin hazırlanmasına təsir etməyə təşviq edilir və onlara bu imkanlar təqdim edilir.

## Nə üçün lazımdır?

- Gənclərin etik və səmərəli iştirakının təmin edilməsi tələbi ölkənin BMT-nin Uşaq Hüquqları haqqında Konvensiyası (UNCRC) üzrə beynəlxalq hüquqi öhdəliklərindən yaranır. Konvensiyanın bütün tərəfləri onlara aid bütün məsələlərlə bağlı yaşları və yetkinlik dərəcələri nəzərə alınmaqla uşaqların fikirlərinin soruşulmasının və onlara müvafiq önəm verilməsinin təmin edilməsi öhdəliyini qəbul etmişlər (BMT-nin Uşaq Hüquqları haqqında Konvensiyasının 12 Maddəsinə baxın). Bu müddəa uşaqların ləyaqətini və müstəqilliyini tanıyır və ona hörmət edir.
- Gənclərin etik və səmərəli iştirakının təmin edilməsinin üstünlüklərinə daxildir: uşaq və gənclər tərəfindən marağın artması , bu isə öz növbəsində xidmətlərin və qərar qəbuletmə prosesinin etibarlılığını yüksəldir; innovasiyalar və islahatlar üçün xidmətlərin istifadəçilərinin təcrübələrinə əsaslanan yeni təkliflər; istifadəçilər haqqında daha məlumatlı olduğundan xidmətlərin cavab reaksiyasının yüksəlməsi və xidmətin davamlı olaraq təkmilləşdirilməsinə imkan verəcək daxili əks əlaqə prosesi.

## Qabaqcıl təcrübə

- BMT-nin Uşaq Hüquqları Haqqında Konvensiyası ümumilikdə uşaq və gənclərin iştirakı üçün əsas təşkil etməli olan prinsiplər üzrə ətraflı təlimatlar təqdim edir. Ən əsas tələblərdən biri odur ölkənin uşaqların fikirlərini ifadə etməsini məhdudlaşdıran və ya uşaqların eşidilməsinə imkan verən, lakin onların fikirlərinə müvafiq önəm verməyən simvolik yanaşmalar tətbiq etməkdən çəkinməsidir. İştirakın effektiv və mənalı olması üçün o ayrıca birdəfəlik hadisə kimi deyil, proses kimi başa düşülməlidir.
- Uşaq və gənclərin iştirak etdiyi bütün proseslərin sərgiləməli olduğu bir sıra əsas xüsusiyyətlər mövcuddur, yəni, onlar: şəffaf və məlumatlandırıcı; könüllü; ehtiramlı; məqsədəmüvafiq; uşaqlara yönəlmiş; inklüziv; təlimlə dəstəklənən; təhlükəsiz və risklərə qarşı həssas və hesabatlı olmalıdır.
- Adətən məsləhətləşməyə və uşaq və gənclərin iştirakına qeyri-rəsmi yanaşma ən azından ilk növbədə, strukturlaşdırılmış dialoqdan daha məqsədəmüvafiqdir.
- Öz rolları və prosesi anlamaları barədə dəqiq təsəvvürləri olması üçün gənclərin fikirlərinin qərar qəbuletmə prosesinə məhz hansı şəkildə daxil ediləcəyini aydınlaşdırın.
- Ehtiyatlı və tədrici yanaşma zərurəti xüsusilə həssas qruplardan olan və ya mürəkkəb və şəxsi problemlər toplusu barədə fikirlərini bölüşmələri istənilmiş uşaqlarla bağlı mühüm əhəmiyyət kəsb edir. Seksual xarakterli hərəkətlərin qurbanlarını cəlb etmək daha çətin ola bilər, bu səbəbdən qurbanların artıq tanıdığı və etibar etdiyi təşkilatlarla əməkdaşlıq etmək daha faydalı olar, belə ki qruplar effektiv vasitəçilər kimi çıxış edə bilər.
- Uşaq və gənclərlə əks əlaqənin təmin edilməsi mühüm əhəmiyyət kəsb edir; bu həmçinin qiymətləndirmə baxımından Qabaqcıl təcrübə təşkil edir.

## Əlavə təlimat və dəstək

- BMT-nin Uşaq Hüquqları haqqında Konvensiyası ümumilikdə uşaq və gənclərin iştirakı üçün əsas təşkil etməli olan prinsiplər üzrə ətraflı təlimatlar təqdim edir, xüsusilə BMT Komitəsinin "Uşağın eşidilmək hüququ" haqqındakı 12 nömrəli (2009) Ümumi Qeydi faydalı məlumat mənbəyidir – www2.ohchr.org/English/bodies/crc/docs/AdvanceVersions/CRC-C-GC-12.pdf

- Bundan əlavə Avropa Şurası uşaq və gənclərin onlara aid məsələlərdə iştirak etmək hüququnun təşviq edilməsində irəliləyişlərin ölçülməsi üçün göstəricilər təklif edən *Uşaq İştirakının Qiymətləndirilməsi* Aləti hazırlamışdır:
  http://www.coe.int/t/dg3/children/participation/Child_participation_AssementTool_en.pdf
- Uşaq Hüquqları üzrə Beynəlxalq Şəbəkə (CRIN) beynəlxalq tədqiqat, siyasət və hüquq-müdafiə təşkilatıdır. O öz saytında uşaq hüquqları barədə geniş informasiya və tövsiyələr təqdim edir – www.crin.org

# Potensial 15 – Preventiv tedbirler sistemi

## Anlayış

- Uşaqlara qarşı seksual marağı olan insanların maraqları üzrə davranmalarının və uşaqlara qarşı seksual xarakterli hərəkətlər etmələrinin qarşısının alınması, eləcə də onların cinayət törətməzdən əvvəl İnternetdə uşaqlara qarşı seksual xarakterli hərəkətlər haqqında məlumata çıxışının qarşısının alınması üçün dəstək sistemləri mövcuddur.
- Seksual xarakterli cinayətlərə görə məhkum edilmiş uşaqlar üçün təkrar cinayət törətmələrinin qarşısını almaq məqsədilə reabilitasiyaları çərçivəsində dəstək sistemləri mövcuddur. Bura seksual xarakterli cinayət törətmiş şəxsin seksual xarakterli cinayət davranışlarının dayandırılması üçün xüsusi strategiyaların öyrənilməsinə, cavabdehlik daşımağa və vurulmuş zərərə görə məsuliyyəti qəbul etməyə  yönəlmiş müalicəsinin təmin edilməsi daxildir. Müalicə seksual xarakterli cinayət davranışlarına əfv və ya bəraət təqdim etmir və ya iştirakçıların cəzalandırılması və ya təhqir edilməsi məqsədi daşımır. Müalicənin diqqət mərkəzində cinayətkara riskləri idarə edərkən güclü tərəfləri inkişaf etdirməkdə kömək etmək dayanır.
- Seksual cəhətdən zərərli davranışlar sərgiləyən gənclər üçün dəstək sistemləri mövcuddur.
- Seksual xarakterli cinayət törətmiş uşaqların ailə və dostları üçün dəstək xidmətləri mövcuddur.
- Həm dövlət müəssisələri, həm də qeyri-hökumət təşkilatları arasından bir sıra təşkilatlar dəstək sistemləri təqdim edir.
- Cinayətkarları və potensial cinayətkarları fikrindən yayındırmaq üçün preventiv məlumatlar nəşr edilir.
- Dəstək təqdim edən mütəxəssislər effektiv xidmət göstərmək üçün müvafiq biliyə, bacarıq və anlayışlara malikdir.

## Nə üçün lazımdır?

- Uşaqlara qarşı seksual xarakterli cinayət törətmək yolunda olan bir insanın sərgilədiyi davranış seksual xarakterli cinayətlə nəticələnmədən aradan qaldırılmalıdır.
- Artıq uşaqlara qarşı seksual xarakterli cinayət törətmiş bəzi şəxslər üçün müalicə gələcək cinayət risklərini əhəmiyyətli dərəcədə azaldır.
- Fəaliyyət cinayətkarların cinayət törətmələrinin ilk mərhələdə qarşısının alınmasına deyil, yalnız onların təqibinə yönəldilərsə, hüquq-mühafizə, həbsxana və məhkəmə sistemləri həddindən artıq yüklənəcəkdir.

## Qabaqcıl təcrübə

- Müalicə proqramları iştirakçılara onların cinayət törətmələrinin/təkrar cinayət törətmələrinin qarşısının alınması üçün praktiki tədbirlər təklif etməlidir.
- Öz davranışlarından narahat olan insanların narahatlıqları cinayətə və ya təkrar törədilmiş cinayətə çevrilməmişdən əvvəl onları aradan qaldırmaq üçün məsləhət almaq məqsədilə peşəkar mütəxəssislərlə əlaqə saxlaya biləcəyi ödənişsiz istifadə edilə bilən , anonim yardım xətti və ya xidmət yaradılmalıdır.
- Ailələrə və dostlara mütəxəssis məsləhəti və dəstəyi təmin etmək üçün də xidmət mövcud olmalıdır.

- Bu xidmətlər ictimaiyyət arasında təbliğ edilməli və ilkin profilaktika aspektini, eləcə də iştirakçılara veriləcək məxfilik zəmanətini vurğulamalıdır.
- Müalicə proqramından istifadəyə əlavə olaraq tələb olunan istənilən müvafiq tibbi və psixoloji dəstək mövcud olmalıdır.
- Tibb mütəxəssisləri onlara uşaqlara qarşı qeyri-münasib seksual hisslər və davranışlara dair problemləri ilə bağlı müraciət etmiş şəxslərlə müvafiq şəkildə işləyə bilmələri üçün xüsusi məlumatlandırma təlimi keçməlidirlər.

## Əlavə təlimat və dəstək

- Dünya üzrə hələ heç bir proqrama malik olmayan ölkələrin proqramların hazırlanmasında təməl kimi istifadə edə biləcəkləri Qabaqcıl təcrübə proqramları nümunələri mövcuddur.
- Nümunələrə daxildir:
  - www.dont-offend.org – Uşaqlara qarşı seksual meylliyi ilə bağlı tibbi yardım almaq istəyən insanlara ödənişsiz və məxfi müalicə təklif edən Alman QHT-si.
  - www.lucyfaithful.org.uk – eksual xarakterli cinayətlər törətmiş yetkin kişi və qadınlara, eləcə də qeyri-münasib seksual davranış sərgiləyən gənclərə mütəxəssis xidmətləri təqdim edən Birləşmiş Krallıq QHTsi.

# Potensial 16 – Zərərsizləşdirmə prosedurları

## Anlayış

- Şirkət xidmətində uşaqlara qarşı seksual xarakterli hərəkətlər haqqında materialın mövcud olduğunu təsdiqlədikdən sonra onun vaxtında istifadədən çıxarılması/silinməsinə imkan verən prosedurlar. Məlumatvermə müştərilər, ictimaiyyətin nümayəndələri, hüquq-mühafizə orqanları və ya qaynar xətt təşkilatları tərəfindən həyat keçirilə bilər.
- Uşaqlara qarşı seksual xarakterli hərəkətlər haqqında material başqa ölkədə yerləşdirilmişdirsə, lakin mənbəyində silinməmişdirsə, İnternet Xidməti Provayderləri həmin materialdan istifadənin qarşısını almaq üçün bloklama və ya filtrləmə kimi mövcud texniki vasitələrdən istifadə edirlər.

## Nə üçün lazımdır?

- Uşaqlara qarşı seksual xarakterli hərəkətlər haqqında materialın internetdə rahat əldə edilə bilən şəkildə qalması başqalarına qanunsuz materialı daha çox izləmə imkanı verəcəyindən və hər bir izləmə qanun pozuntusu olduğundan qanunpozmaların sayını artıracaqdır.
- Material hər dəfə izləndikcə təsvirdəki uşaq təkrar qurbana çevrilir.
- Materialın onlayn xidmətlərin operatorları tərəfindən silinməsi İnternetdə uşaqlara qarşı seksual xarakterli hərəkətlər haqqında materialın həcmini azaldır.
- Ölkədən xaricdə yerləşdirilmiş uşaqlara qarşı seksual xarakterli hərəkətlər haqqında materiala çıxışın bloklanması cinayətkarların qanunu pozanların ondan istifadəsinə mane olacaqdır, lakin o materialın İnternetdən silinməsi üçün uzunmüddətli həll deyil. Bu səbəbdən o mənbədən silinmə ilə kombinə edilməlidir. Bu cür yanaşma hər bir ölkənin bu məzmunu ölkə daxilində yerləşdirildiyində onu silmək öhdəliyini üzərinə götürdüyünə zəmanət verir.
- Normativ-hüquqi tənzimləmə İnternetdə uşaqlara qarşı seksual xarakterli hərəkətlər haqqında materialla mübarizənin mexanizmlərindən biridir, lakin yeganə mexanizm deyil. Özünütənzimləmə İXP və sənaye sektorunun digər nümayəndələri uşaqlara qarşı seksual xarakterli hərəkətlər haqqında materialı öz xidmətlərindən silmək və onun daha artıq yayılmasının qarşısını almaq məqsədilə əməkdaşlıq etdikdə bənzər nəticələr əldə edə bilər.

## Qabaqcıl təcrübə

- Məzmunun vaxtında silinməsi və ya uşaqlara qarşı seksual xarakterli hərəkətlər haqqında materiala çıxışın bloklanması üçün etibarlı proseslərin mövcudluğunu təmin etmək məqsədilə INHOPE-un beynəlxalq səviyyədə razılaşdırılmış qabaqcıl təcrübələr toplusuna riayət edilməlidir.
- Sənaye sektoru provayderləri tərəfindən informasiyanın təhlükəsiz şəkildə alınmasını təmin etmək üçün etibarlı İT infrastrukturu mövcud olmalıdır.  Mümkün hallarda materialın təsirinə məruz qalmış insanların sayını azaltmaq üçün proseslər avtomatlaşdırılmalıdır.

## Əlavə təlimat və dəstək

- Qaynar xətlərin beynəlxalq şəbəkəsi INHOPE GSMA Mobil Alyansı ilə tərəfdaşlıqda hazırlanmış Bildiriş və Zərərsizləşdirmə prosedurları üzrə təlimat da daxil olmaqla uşaqlara qarşı seksual xarakterli hərəkətlər haqqında materiala çıxışın və ya çıxışın asanlaşdırılmasının qarşısının alınmasında şirkətlərə kömək məqsədilə tövsiyə və dəstək təklif edə bilər (www. inhope.org). Bundan əlavə Birləşmiş Krallığın qaynar xətti olan – "Internet Watch Foundation" – məsləhət və tövsiyələr təklif edir.  (www.iwf.org.uk).

- Texnologiya Koalisiyası İnternetdən uşaqları seksual məqsədlərlə istismar etmək və uşaqlara qarşı seksual xarakterli hərəkətlər haqqında materialı yaymaq üçün istifadə edilməsi imkanını aradan qaldıran texnoloji həllərin yaradılmasını təşviq edir. O həmçinin sektorlararası əməkdaşlıq və qabaqcıl təcrübənin paylaşılması üçün platformalar axtarır və yaradır. (www.technologycoalition.org).

# Potensial 17 – UCİSH haqqında məlumat verilməsi

## Anlayış

- Sənaye sektoru internetdə uşaqların cinsi istismarı və onlara qarşı seksual xarakterli hərəkətlərin vaxtında müəyyən edilməsi və bu barədə müvafiq orqanlara məlumat verilməsinə imkan verən proseslər tətbiq edir və resurslar ayırır.
- Şirkətlərin işçi heyəti internetdə uşaqların cinsi istismarı və onlara qarşı seksual xarakterli hərəkətlərlə bağlı hallara effektiv şəkildə reaksiya vermək üçün zəruri bilik və bacarıqlara malikdir.
- Uşaqların cinsi istismarı haqqında materiallarla qarşılaşan bütün heyətin müdafiəsinə kömək üçün səhiyyə və sağlamlıq proqramı mövcuddur.
- Sənaye sektorunun internetdə uşaqların cinsi istismarı və onlara qarşı seksual xarakterli hərəkətlər haqqında tam və effektiv şəkildə məlumat verməsinə, o cümlədən məzmunun hüquq-mühafizə və ya digər təyin edilmiş orqanlara ötürməsinə imkan verən qanunla müəyyən edilmiş müdafiə vasitələri mövcuddur.

## Nə üçün lazımdır?

- UCİSH böyük əksəriyyəti bağlı qapılar arasında baş verən ən az qabardılan cinayət növlərindən biri kimi qalır. İnternet nadir hallarda bu cinayətlərə pəncərə təşkil edir. Öz müştərilərinin və xidmətlərinin qorunması ilə yanaşı sənaye sektoru fəaliyyətləri əks halda heç cür müəyyən edilə bilməyəcək qurbanların və cinayətkarların təyin edilməsinə kömək edə bilər.
- Sənaye sektoru tərəfindən məlumatvermə şirkətlərin uşaq və gənclər üçün təhlükəsiz platformalar və xidmətlər təqdim etməsinə imkan verir və cinayətkarların əngəllənməsinə kömək edir.
- Qanunsuz materialların idarə edilməsi üçün etibarlı proqram və prosedurlar işçi heyəti sağlamlıqlarına və əhval-ruhiyyələrinə təsir edə biləcək lazımsız qarşılaşmadan qorumağa kömək edir və materialda təsvir edilmiş qurban(lar)ın təkrar qurbana çevrilməsi ehtimalını azaldır.
- Etibarlı proqram və prosedurlar şirkətləri işləri müvafiq şəkildə prioritetləşdirmək və kəskinləşdirmək və qanunsuz materialları təhlükəsiz şəkildə idarə etmək imkanı ilə təmin edir.
- Qanunla müəyyən edilmiş müdafiə vasitələri şirkətlərə bu materialı emal etməsi üçün səlahiyyət və əminlik verir.

## Qabaqcıl təcrübə

- İnternetdə uşaqların cinsi istismarı və onlara qarşı seksual xarakterli hərəkətlərlə bağlı hallarda təsirli və effektiv cavab tədbirlərini təmin etmək üçün yeterli resurslar ayrılmalıdır.
- Texnologiya şirkətinin uşaqların cinsi istismarı və onlara qarşı seksual xarakterli hərəkətlərlə bağlı hallarla işləyə biləcək mövqedə olan bütün heyəti bu işdə könüllü şəkildə iştirak etməyə razılaşmalı, zəruri bilik və bacarıqlara malik olmalı və müvafiq şəkildə yoxlanılmış, təlim keçmiş və dəstəklənmiş olmalıdır.

## Əlavə təlimat və dəstək

- Şirkətlərin məlumatvermə proses və prosedurlarının hazırlanmasını dəstəkləmək məqsədilə Qabaqcıl təcrübə, məsləhət və tövsiyələrdən yararlanmaq üçün iştirak edə biləcəkləri bir sıra aparıcı beynəlxalq təşkilat və təşəbbüslər mövcuddur. Bura daxildir:
    - Birləşmiş Ştatların İtkin düşmüş və İstismara məruz qalmış Uşaqların İşləri üzrə Milli Mərkəzi (www.missingkids.org)
    - Texnologiya Koalisiyası (www.technologycoalition.org)

# Potensial 18 – İnnovativ həllərin hazırlanması

## Anlayış

- İnternetdə UCİSH hallarının qarşısının alınması və həll edilməsinə yanaşmaları təkmilləşdirən və ya yeni yanaşmaların yaradılmasına imkan verən innovativ texnoloji həllərin hazırlanması.
- İnternetdə UCİSH hallarının aradan qaldırılması üçün kollektiv səylərin artırılması məqsədilə sənaye sektorunun öz unikal bilik və bacarıqlar toplusunu müvafiq maraqlı tərəflərlə fəal şəkildə bölüşməsi.

## Nə üçün lazımdır?

- Texnologiya şirkətləri  texnoloji inkişafları proqnozlaşdırmaq və seksual xarakterli cinayətlər törədən uşaq cinayətkarlar tərəfindən istifadə edilə biləcək yeni və meydana çıxmaqda olan onlayn tendensiya və modelləri müəyyənləşdirmək təcrübəsinə malikdir. Digər maraqlı tərəflərin cinayətkar və qurbanların davranışları haqqında bilikləri nəzərə alınmaqla bu uzaqgörənlik yeni yanaşmaların hazırlanmasına şərait yarada və hüquq-mühafizə orqanlarının daha çox qurban və potensial qurbanı qorumasına və müdafiə etməsinə imkan verə bilər.

## Qabaqcıl təcrübə

- Son illərdə bir sıra qabaqcıl beynəlxalq texnologiya şirkətləri öz platformalarında internetdə UCİSH ilə bağlı halların qarşısının alınması və onlarla mübarizə üçün yeni və innovativ alət və metodların hazırlanmasına əhəmiyyətli dərəcədə böyük investisiyalar qoymuşdur. Məsələn, şirkətlər cinayətkarların açıq İnternetdə uşaqlara qarşı seksual xarakterli hərəkətlər haqqında materiala çıxışının qarşısını almaq üçün bu materialdan axtarış sistemləri, veb poçt və sosial media platformaları vasitəsilə istifadə edən insanların sayında qlobal şəkildə azalmaya səbəb olmuş mürəkkəb alət və metodlar hazırlamışdır. Şirkətlər bu və digər qabaqcıl təcrübələri mümkün qədər geniş şəkildə paylaşmağa təşviq edilir.
- Alətlərin digər texnologiya şirkətləri üçün ödənişsiz şəkildə əlçatan edilməsi daha çox xidmət təchizatçısının öz xidmətlərində uşaqlara qarşı seksual xarakterli hərəkətlər haqqında materialı təyin etmək və silmək, eləcə də onlayn cinsi istismarın qarşısını almaq üçün təsirli metodlar tətbiq etməsinə imkan verəcək. Microsoft-un istifadəçilərin öz xidmətlərində uşaqlara qarşı seksual xarakterli hərəkətlərin bilinən təsvirlərini heşlərin müqayisəsi və eyniləşdirilməsi yolu ilə təyin etməsinə imkan verən ödənişsiz PhotoDNA texnologiyasını buna nümunə kimi qeyd etmək olar.
- Ayrı-ayrı şirkətlərin öz platformalarının/xidmətlərinin uşaqlar üçün mümkün qədər təhlükəsiz saxlanılmasına kömək məqsədilə həyata keçirə biləcəkləri dəstək xidmətlərinin nişanlarının yerləşdirilməsi, internetdə qeyri-münasib seksual xarakterli əlaqə və ya materialla bağlı məlumat veriləcək yerli orqanların nişanlarının yerləşdirilməsi; uşaqlara qarşı seksual xarakterli hərəkətlərlə bağlı məzmunları açıq şəkildə qadağan edən davranış şərtləri və ya qaydalarının qeyd edilməsi; uşaqlara qarşı seksual xarakterli hərəkətlər haqqında materialla bağlı etibarlı bildiriş və zərərsizləşdirmə proseslərinin hazırlanması və həyat keçirilməsi və internetə yerləşdirilmiş lakin mənbəyindən silinməmiş uşaqlara qarşı seksual xarakterli hərəkətlər haqqında materiala çıxışın bloklanması kimi əlavə müsbət fəaliyyətlər də mövcuddur,.
- Şirkətlər arasında internetdə uşaqların cinsi istismarı və onlara qarşı seksual xarakterli hərəkətlərlə bağlı siyasətlərin uyğunlaşdırılması və Qabaqcıl təcrübələrin və çıxarılmış dərslərin bölüşülməsi daha çox onlayn xidmətin öz xidmətlərində uşaqlara qarşı seksual xarakterli cinayətlərin qarşısını almasına və əngəlləməsinə imkan verən mühüm şərtlərdən biridir.

## Əlavə təlimat və dəstək

- Şirkətlərin innovativ Qabaqcıl təcrübə, məsləhət və tövsiyələrdən yararlanmaq və texniki həllərin hazırlanmasına töhfə vermək üçün iştirak edə biləcəkləri bir sıra aparıcı beynəlxalq təşkilat və təşəbbüslər mövcuddur. Bura daxildir:
    - Texnologiya Koalisiyası İnternetin uşaqları seksual məqsədlərlə istismar etmək və ya uşaqlara qarşı seksual xarakterli hərəkətlər haqqında məlumatın yayılması üçün istifadə edilməsi imkanını əngəlləyən texnoloji həllərin yaradılmasını təşviq edir. O həmçinin sektorlararası əməkdaşlıq üçün platformalar axtarır və yaradır. (www.technologycoalition.org)
    - Texnologiya sektoru, hökumət və QHT-lərin nümayəndələrindən ibarət "Thorn" tərəfdaşları texnologiyadan vəhşi davranışlarla mübarizə aparmaq, qurbanları xilas etmək və həssas qruplardan olan uşaqları qorumaq məqsədilə istifadə edir. (www.wearethorn.org)
    - Beynəlxalq sektor əməkdaşlığı mexanizmlərinə digər nümunələri Uşaqlara Qarşı Seksual Xarakterli Hərəkətlər haqqında Məzmuna qarşı GSMA Mobil Alyansı, Uşaqların Onlayn Müdafiəsi üçün İKT Koalisiyası və Uşaq Pornoqrafiyasına qarşı Maliyyə Koalisiyası təşkil edir.
    - İnternetdə UCİSH ilə mübarizədə əməkdaşlığın genişləndirilməsi üçün beynəlxalq təşəbbüs olan – İnternetdə Uşaqların Cinsi İstismarına Son Verilməsi üçün WePROTECT Qlobal Alyansı texnologiya sektorunun yeni və innovativ texnoloji həllərin yaradılmasının araşdırılması və qabaqcıl təcrübənin bölüşülməsi məqsədilə toplandığı bir sıra tədbirlər keçirmişdir. Şirkətlərin gələcək tədbirlərdə iştirak etməsi təşviq edilir.

# Potensial 19 – Korporativ sosial məsuliyyət

## Anlayış

- Şirkətlər (milli və beynəlxalq) uşaqların təhlükəsizliyinin pozulmasının, o cümlədən, onlarla bağlı cinsi istismar və seksual xarakterli hərəkətlərin qarşısını alan sistemlərin tətbiq edilməsinə xüsusi diqqət yetirərək uşaqların təhlükəsizliyi məsələlərinin məhsul və xidmətlərin hazırlanması və təqdim edilməsində ilkin əhəmiyyət kəsb etdiyinə zəmanət verir.
- Şirkətin UCİSH ilə bağlı halları təyin etmək, qarşısını almaq və onun zərərlərini azaltmaq üçün adekvat addımlar atmasını təmin etmək məqsədilə uşaqların təhlükəsizliyi məsələləri müvafiq korporativ siyasətlərə, prosedur və proseslərə daxil edilir.

## Nə üçün lazımdır?

- Texnologiya şirkətləri İnternetdə UCİSH ilə bağlı halların yayılmasının qarşısını almağa kömək edə bilər, bu isə öz növbəsində qurbanların sayının azalmasına kömək edə bilər.
- Texnologiya şirkətləri İnternetdə UCİSH ilə bağlı halların təyin edilməsinə kömək edə bilər, bu isə qorunan və müdafiə edilən qurbanların, eləcə də müəyyən edilmiş və həbs edilmiş cinayətkarların sayını artırar.
- Milli qanunvericiliyin hələ beynəlxalq standartlar səviyyəsinə çatmadığı hallarda şirkətlərin hələ də öz biznes təcrübələrini könüllü şəkildə həmin standartlara uyğunlaşdırmaq imkanı və sosial məsuliyyəti mövcuddur.
- Səyahət və turizm sənayesi kimi digər sənaye sektorları UCİSH ilə bağlı halların təyin edilməsinə kömək edə bilər, bu isə öz növbəsində qorunan və müdafiə edilən qurbanların, eləcə də müəyyən edilmiş cinayətkarların sayını artırar.

## Qabaqcıl təcrübə

- Xidmətləri məzmunun paylaşılmasına və/və ya istifadəçilərin qarşılıqlı fəaliyyətinə imkan verən şirkətlər müştəriləri və ictimaiyyəti UCİSH ilə bağlı potensial halları bildirmək imkanı ilə təmin etmək üçün məlumatvermə mexanizmi tətbiq edir. Bu tanınmış internet məkanlarında və fiziki məkanlarda təşviq edilməlidir.
- Müəyyən bir fərd/komanda UCİSH ilə bağlı bildirişlərin emalı üzrə məsul şəxs kimi təyin edilir və şirkət bu cinayətlərin profilinin bütün şirkətdə yayılmasına investisiya qoyur.
- Uşaqların təhlükəsizliyinə səciyyəvi risklərin, o cümlədən seksual xarakterli hərəkətləri və cinsi istismarın ümumşirkət siyasətinə daxil edilməsinə imkan verən uşaqların qorunması/müdafiəsi siyasəti tətbiq edilir.
- Müştərilərə şirkətin xidmətlərini/platformasını UCİSH məqsədilə istifadə etməyi və ya uşaqlara qarşı seksual xarakterli hərəkətlər haqqında məlumat yaratmağı, yaymağı və ya izləməyi açıq şəkildə qadağan edən istifadə təlimatları və davranış qaydaları müəyyən edilir.
- Müvafiq hallarda şirkət ya uşaqlara qarşı seksual xarakterli hərəkətlər haqqında onlayn materialların istifadədən çıxarılması və ya zərərsizləşdirilməsi üçün etibarlı proseslər tətbiq edir.
- İstifadəçilərə valideyn nəzarəti alətləri, bloklama/icazə siyahıları və məzmunun filtrasiyası kimi müvafiq texniki tədbirlər təmin edilir.
- Azyaşlı istifadəçilərin və onların valideynlərinin öz onlayn fəaliyyətlərində səlahiyyətli və məsuliyyətli rəqəmsal vətəndaşlar kimi məlumatlı qərarlar qəbul etməsinə imkan yaratmaq məqsədilə yaşa müvafiq və uyğun maarifləndirici və məlumatlandırıcı informasiya hazırlanır.

- Şirkətlər eyni zamanda cinayətkarlar üçün əngəlləyici amil kimi çıxış edəcək məsuliyyətli ismarıcların hazırlanmasında, təşviq edilməsində və yayılmasında rol oynamalıdırlar.
- Şirkətlər həmçinin ölkələri və digər şirkətləri potensialın inkişaf etdirilməsində dəstəkləyə bilər. Effektivliyin artırılması məqsədilə bu dəstəyin təmin edilməsi artıq dəstək təklif edən digər təşkilatlarla və/və ya bütün dünyada potensialın inkişaf etdirilməsi proqramlarını dəstəkləyən Qlobal Tərəfdaşlıq və onun nəzdindəki Uşaqlara Qarşı Zorakılığa Son verilməsi üçün Fond vasitəsilə koordinasiya edilə bilər.

## Əlavə təlimat və dəstək

- Beynəlxalq Telekommunikasiya İttifaqı (ITU), UNICEF və Uşaqların Onlayn Müdafiəsi Təşəbbüsünün tərəfdaşları uşaqların onlayn müdafiəsini gücləndirmək məqsədilə göstərişlər təqdim edir: http://www.itu.int/en/cop/Pages/guidelines.aspx
- UNICEF İKT sektoru daxilindəki şirkətlər üçün bir neçə alət, o cümlədən xüsusi Uşağın Onlayn Təhlükəsizliyinin Qiymətləndirilməsi aləti hazırlamışdır: http://www.unicef.org/csr/toolsforcompanies.html
- Qlobal Tərəfdaşlıq və Uşaqlara Qarşı Zorakılığa Son verilməsi üçün Fond haqqında əlavə məlumatla – www.end-violence.org- saytında tanış olmaq olar.

# Potensial 20 – Etik və məlumatlı media reportajı

## Anlayış

- UCİSH ilə bağlı halların mediada əhatəsi etik, məlumatlı və balanslaşdırılmışdır, hər zaman qurbanların ləyaqət hissinə və hüquqlarına hörmət edilərək həssas şəkildə təqdim edilir. Bu jurnalistlər və redaktorlar tərəfindən UCİSH hallarının qarşısının alınması və onunla mübarizə ilə məşğul olan tərəflərlə tərəfdaşlıq şəraitində ən yaxşı şəkildə həyata keçirilir.
- UCİSH qurbanları haqqında müsahibə və reportajlar hazırlanarkən onların şəxsi həyatın toxunulmazlığı və konfidensiallıq hüququna xüsusi diqqət yetirilir. Media reportajı qurbanları stiqmalaşdırmamalı və ya onların təhlükəsizliyini və ya anonimliyini sarsıtmamalı və qeyri-etik və düşünülməmiş reportajlar vasitəsilə qurbanı mənfi təzyiqlərə məruz qoyan təsnifləndirmə və təsvirlərdən çəkinməlidir.
- Qurbanın həm etik, həm də hüquqları çərçivəsində ən yaxşı maraqları bütün digər mülahizələrə münasibətdə, o cümlədən uşaq problemlərinin müdafiəsi və uşaq hüquqlarının təşviqinə münasibətdə qorunur.
- Media UCİSH ətrafındakı mif və stereotiplərin aradan qaldırılmasında həlledici rol oynayır.

## Nə üçün lazımdır?

- Media UCİSH problemini ictimaiyyətin şüuruna və siyasi gündəmə yerləşdirməkdə mühüm rol oynayır. Bütövlükdə qurban və cəmiyyət üçün ən yaxşı nəticələr etik, balanslaşdırılmış və məlumatlı media reportajlarından əldə ediləcəkdir.
- UCİSH haqqında reportajlar həssaslıqla emal edilməlidir və qurbanın başlıca məsələ olmalıdır.
- Məxfi məlumatlar düşünülməmiş, qeyri-dəqiq və etik olmayan reportaj vasitəsilə açıqlanarsa, təhqiqatlar və ya hüquqi icraatlar qərəzli ola bilər.
- Bu mediaya UCİSH haqqında hər hansı bir partiyanın gündəmini və ya siyasi gündəmi dəstəkləyəcək şəkildə məlumat vermək üçün təsir etməyi nəzərdə tutmur. Söhbət qurbanın ən yaxşı maraqlarının nəzərə alınmasını və hadisələrlə bağlı heç bir məlumatda hüquq-mühafizə orqanlarının təhqiqatına zərər vurulmamasını və UCİSH haqqında qurbanlara zərər vuran lazımsız miflərin kök salmamasını təmin etməkdən gedir.

## Qabaqcıl təcrübə

- UCİSH barədə məlumat verilməsi standartları dörd müxtəlif səviyyədə tənzimlənə bilər: peşəkar jurnalistlərin riayət etdiyi Davranış Qaydaları, media təşkilatlarının əməl etdiyi Rəhbər Prinsiplər, müvafiq məsul qurumların media təşkilatlarının məlumatvermə standartlarına nəzarət etdiyi Tənzimləmə Strukturları və qurbanların hüquqlarını dəstəkləyən Qanunlar.
- Uşaq qurbanın təhlükəsizliyini təyin edə və ya poza bilən və ya cinayət təqibinin dayandırılmasına səbəb ola bilən detallar heç zaman nəşr olunmamalıdır.
- Uşaq qurbanı danışdırarkən və ya onun fotoşəklini çəkərkən müvafiq yetkin şəxsin və uşaq qurbanın razılığı alınmalıdır.
- Uşaq qurbanın anonimliyi məhkəmə icraatlarından əvvəl, icraat müddətində və sonra qanunla qorunmalıdır.
- Hökumətlər və QHT-lər medianın UCİSH haqqında məlumatlılığın artırılması sahəsində səylərini dəstəkləməli və savadlı şərhlər verilməsi üçün media kanallarına uşaq hüquqları haqqında etibarlı mənbələrin kataloqunu təqdim etməlidirlər.

- Dəqiq, vaxtında və etik reportajlar təmin etmək üçün media redaktorları, müxbirlər və hüquq-mühafizə orqanları arasında məhsuldar və açıq kommunikasiya yolları mövcud olmalıdır.
- UCİSH haqqında etik və məlumatlı media reportajları haqqında informasiya jurnalistlərin peşəkar akkreditasiyasına daxil edilməlidir.

## Əlavə təlimat və dəstək

- UNICEF jurnalistlərin uşaq hüquqları haqqında anlayışlarını artırılmasını və bu problemin necə xəbər süjetləri və çap və yayım mediası üçün materiallar yarada biləcəyinə dair təkliflərin təqdim edilməsini nəzərdə tutan "Media və Uşaq Hüquqları" Göstərişləri hazırlamışdır. Əlavə məlumat üçün baxın: www.unicef.org
- Beynəlxalq Jurnalistlər Federasiyası bütün dünyada peşəkar qurumlarda məlumatvermə standartlarını nəzərdən keçirən qlobal "Etik Jurnalistika Təşəbbüsü"nə başlamışdır. Əlavə məlumat üçün baxın: www.ethicaljournalisminitiative.org.

# Potensial 21 – Universal terminologiya

## Anlayış

- UCİSH ilə bağlı universal olaraq razılaşdırılmış terminologiyadan istifadə informasiya və ideyaların bütün maraqlı tərəflər arasında sürətli və aydın şəkildə yayılmasına imkan verir.

## Nə üçün lazımdır?

- Universal olaraq razılaşdırılmış terminologiyadan istifadə bütün maraqlı tərəflər arasında anlamanın, məzmunun və reaksiyanın uyğunluğunu təmin edəcək.
- Terminologiyadan qeyri-ardıcıl istifadə reaksiyalarda, qanunvericilikdə və eyni məsələnin anlayışında fərqliliyə səbəb ola bilər.
- UCİSH ilə bağlı terminlərin Təsviri ilə bağlı beynəlxalq razılaşmanın olmaması cinayətin aradan qaldırılması üzrə qlobal mübarizəyə təsir etmişdir: milli səviyyədə uşaqlara təmin olunan müdafiə səviyyələri ziddiyyətlidir; cinsi istismar və seksual xarakterli hərəkətlərlə bağlı məlumatların toplanması və müxtəlif metodların müəyyənləşdirilməsi qeyri-dəqiqlik və qeyri-müəyyənliklə müşayiət olunur; beynəlxalq maraqlı tərəflər arasında informasiyanın yayılması yanlış anlaşıla bilir, müdafiə fəaliyyətləri isə dil və terminlərin istifadəsində qarışıqlıq səbəbindən pozulur.
- "Uşaq pornoqrafiyası" termini ətrafında davam etməkdə olan müzakirə ən mühüm nümunələrdən biridir, termin qurbana yönəlmiş dildə olmadığı və "pornoqrafiya" terminindən istifadə edilməklə yanlışlıqla uşaqlara qarşı seksual xarakterli hərəkətlər haqqında materialı qanuniləşdirə biləcəyi əsas gətirilərək bir çox hüquq-mühafizə orqanları və uşaq hüquqları sahəsində beynəlxalq ictimaiyyət tərəfindən rədd edilir.
- UCİSH probleminin beynəlxalq/transsərhəd kontekstində universal razılaşdırılmış terminologiyanın olmaması ilə bağlı çətinliklər daha da güclənir. Eyni terminlər müxtəlif fəaliyyətlərə/cinayətlərə istinad edərsə, bu vəziyyətin yanlış anlaşılmasına səbəb olaraq təhqiqatlara və məhkəmə icraatlarına təsir edə bilər.

## Qabaqcıl təcrübə

- 2014-cü ilin sentyabr ayında "ECPAT International" qeyri-hökumət təşkilatının təşəbbüsü ilə "Qurumlararası Terminologiya və Semantika Layihəsi" başlamışdır. Layihənin Uşaqların Cinsi İstismarı üzrə İşçi Qrupu uşaqların müdafiəsi sahəsində 18 əsas maraqlı tərəfin iştirakı ilə qlobal terminologiya göstərişləri toplusu hazırlamaq üçün tədqiqat və təhlil həyata keçirdi. Bu göstərişlər bir sıra təşkilatlar tərəfindən təsdiqləndi və 2016-cı ilin iyun ayında tətbiq edildi. Onlar "tovsiyeleri" adlanır.
- Люксембурзькі рекомендації ingilis, fransız və ispan dillərində mövcuddur. Çoxdilli yanaşma terminologiyanın hər bir dilin nüanslarını dəqiq əks etdirməsini və ingilis mətninin hərfi tərcüməsi olmamasını təmin etmək üçündür.
- Rəhbər prinsiplər UCİSH ilə bağlı ümumişlək terminlərin mürəkkəb leksikonuna naviqasiya üzrə praktiki təlimatlar təklif etmək məqsədilə bütün dünyada uşaqların müdafiəsi sahəsində bütün başlıca qurumlar və təşkilatlar, o cümlədən qanunverici təşkilatlar və media üçün əlçatandır.

## Əlavə təlimat və dəstək

- Əlavə məlumat www.luxembourgguidelines.org saytında əldə edilə bilər, burada Rəhbər Prinsiplərin hazırlanması üçün İşçi Qrupunda iştirak etmiş təşkilatların siyahısı da mövcuddur.

COUNCIL OF EUROPE

CONSEIL DE L'EUROPE

End Violence Against Children

THE FUND

Bu nəşrin tərcüməsi Avropa Şurasının "Avropada uşaqların internet vasitəsi ilə cinsi istismar və seksual xarakterli hərəkətlərə məruz qalmasına son qoyulması" layihəsi çərçivəsində həyata keçirilmişdir. Avropa Şurası bu proqramı maliyyə dəstəyi ilə təmin etdiyi üçün Uşaqlara qarşı Zorakılıqla Mübarizə Fonduna minnətdarlığını bildirir.